

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 iyun 2026-cı il, çərşənbə
№ 103 (7170)
Qiyməti 60 qəpik


# ABŞ-Azərbaycan əlaqələri: Dostluq və etibarlı tərəfdaşlıq...



Bax səh. 2





## Prezident İlham Əliyevlə Niderlandın Baş naziri arasında telefon danışığı olub

İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Niderland Krallığının Baş naziri Rob Yetten arasında telefon danışığı olub. Bu barədə Prezidentin X sosial şəbəkə hesabında paylaşım edilib.

Paylaşımda bildirilir: "Bu gün Niderlandın Baş naziri Rob Yetten (@MinPres) mənə telefon zəngi etdi. Siyasi dialoqumuzu və iqtisadi əməkdaşlığımızı daha da dərinləşdirmək barədə razılığa gəldik. Biz, həmçinin regional proseslər ətrafında fikir mübadiləsi apardıq və mən Niderlandın bölgədə dayanıqlı sülhə və sabitliyə verdiyi dəstəyə görə məmnunluğumu bildirdim".

## Siyasi dialoqun davamlılığı təmin olunur

Bax səh. 7

## Baş nazir Əli Əsədov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb



Daşkənd şəhərində işgüzar səfərdə olan Baş nazir Əli Əsədov iyunun 16-da Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib. Bildirilib ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Özbəkistanın dövlət başçısına çatdırıb. Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib. Görüşdə Azərbaycan-Özbəkistan münasibətlərinin strateji tərəfdaşlıq və müttəfiqlik əsasında uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Ticarət-iqtisadi, investisiya, nəqliyyat-logistika, enerji, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi perspektivləri geniş müzakirə edilib.



Bax səh. 3-6

## "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu"

## "Dənizlərin enən səviyyəsi, çəkilən sahil xətləri, davamlılıq və qapalı su hövzələrinin gələcəyi: Xəzər dənizi nümunəsi"

Bax səh. 7





## ABŞ ilə İran iyunun 19-da saziş imzalayacaq

Bax səh. 7

# ABŞ-Azərbaycan əlaqələri: Dostluq və etibarlı tərəfdaşlıq...

## Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampı 80 illik yubileyi münasibətilə təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa 80 illik yubileyi münasibətilə təbrik məktubu ünvanlayıb. Bu barədə Prezidentin "X" sosial şəbəkəsindəki hesabında paylaşım edilib. Məktubda Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampı əlamətdar yubiley - anadan olmağının 80 illiyi münasibətilə ən səmimi təbriklərini bildirib, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, güclü və qüdrətli dövlətin görkəmli Lideri kimi ali dövləti fəaliyyətində daim uğurlar və yeni-yeni nailiyyətlər arzulayıb. Qeyd olunub ki, Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın təşəkkülündə və dərinləşməsində Donald Trampın əvəzsiz xidmətləriniz vardır və biz bunu yüksək qiymətləndiririk: "Keçən ilin avqustunda Ağ Evdə Sizinlə tarixi görüş zamanı əsası qoyulmuş Strateji Tərəfdaşlıq Xartiyasının altı ay sonra ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri çərçivəsində imzalanması Azərbaycan-ABŞ əlaqələrini keyfiyyətcə yeni pilləyə qaldırdı. Əldə etdiyimiz bu möhtəşəm nailiyyət Sizin sarsılmaz iradənizin və əzminizin bariz göstəricisidir.



Dövlətlərarası münasibətlərimizin inkişafına daim verdiyiniz böyük önəmə və dəstəyə görə Sizə təşəkkür edirik. Biz Sizə Cənubi Qafqazda sülh gündəliyinin təşviqi naminə göstərdiyiniz qətiyyətə görə də minnətdarıq. Vaşinqtonda şahidliyiniz ilə imzaladığımız üçtərəfli birgə bəyannamə, habelə Ermənistanla paraflanan Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş sülh quruculuğu yolunda Sizin ardıcıl səylərinizin nəticəsidir. Eyni zamanda biz Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantını təmin edəcək və Orta Dəhlizin bir hissəsinə çevriləcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nu (TRIPP) regionda dayanıqlı sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olaraq görürük".

Məktubda həmçinin vurğulanır ki, "Sizinlə aramızdakı şəxsi münasibətləri, dostluğu, dərin hörmət və etimadı daim uca tutur, son bir il ərzində mehribanlıq və səmimiyyət şəraitində keçən məhsuldar görüşlərimizdən və təmaslarımızdan məmnunluq duyduğumu bildirirəm. Yüksək səviyyədə qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə münasibətlərimizin daha da dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır. Azərbaycan-ABŞ əlaqələrini bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnoloji və digər sahələrdə daha da inkişaf etdirmək və möhkəmləndirmək qarşılıqlı əzmimiz təqdirəlayiqdir. Əminəm ki, Azərbaycan ilə ABŞ arasında dostluğun və etibarlı tərəfdaşlığın dərinləşdirilməsi, səmərəli əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik. Dərin hörmət və ehtiramlarımı izhar edərək bir daha Sizə və ailənizə ən xoş arzularımı çatdırır, dost Amerika xalqının rifahı naminə məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm".

# Prezident İlham Əliyev Kral III Çarlza təbrik məktubu ünvanlayıb

Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Kralın Təvəllüd Günü münasibətilə Böyük Britaniya və Şimali İrlandiyanın Kralı III Çarlza təbrik məktubu ünvanlayıb. Məktubda bilirilib ki, hazırda dostluğa, qarşılıqlı hörmət və etimada əsaslanan dövlətlərarası əlaqələrimiz, siyasi, iqtisadi-ticari, investisiya, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə səmərəli əməkdaşlığımız dinamik və davamlı şəkildə inkişaf etməkdədir. Qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq Azərbaycan-Birləşmiş Krallıq ikitərəfli gündəliyini daha da zənginləşdirə bilərik: "Əminəm ki, xalqlarımızın rifahı naminə ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin və qarşılıqlı maraq doğuran əməkdaşlığın daha da möhkəmləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik. Əlahəzrət, belə bir əlamətdar gündə Sizə bir daha təbriklərimi yetirir, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ali fəaliyyətinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim rifah və firavanlıq arzulayıram".

# Azərbaycan Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır

## Prezident İlham Əliyev "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb



Prezident İlham Əliyev iyunun 15-də Şuşa şəhərində Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb. Dövlət başçısı iştirakçıları salamlayaraq 2022-ci ildən başlayaraq təşkil olunan bu mötəbər beynəlxalq tədbirin müasir dövrdə baş verən mürəkkəb geosiyasi proseslər fonunda xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd olunub ki, Azərbaycanın təşviq etdiyi regional sülh və sabitlik mühitinin yaradılması ideyasının vacib tərkib hissəsinə çevrilən konfransın iştirakçılarının sayının ilbəil artması onun ümumi təhlükəsizliyə və beynəlxalq əməkdaşlığa gələcəkdə layiqli töhfələr verəcəyinə əminlik yaradır: "Müstəqilliyini bərpa etdikdən sonra işğala, beynəlxalq təhdidlərə və ədalətsizliyə məruz qalmış Azərbaycan hər zaman öz ərazi bütövlüyünün təmin olunması, vətəndaşlarının təhlükəsiz şəraitdə yaşaması uğrunda mübarizə aparmış, eyni zamanda dünya ölkələri arasında əməkdaşlıq və mehriban dostluq münasibətlərinin qurulmasına çalışmışdır. Uzun illər əsarət altında qalan torpaqlarımız 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi və 2023-cü ildə keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Ermənistan işğalından azad edilmiş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuşdur. Bununla, BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə kağız üzərində qalmış qətnamələrinin icrası Azərbaycan dövlətinin özü tərəfindən təmin edilmişdir".

Müraciətdə vurğulanır ki, ölkəmiz regionda davamlı sülh və sabitlik mühitinin yaradılması və qorunması istiqamətində qətiyyətli siyasət həyata keçirməkdədir. Ötən il Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişinin paraflanması Cənubi Qafqazda vəziyyəti tamamilə dəyişmişdir. Bu xüsusda, reallaşmaqda olan Zəngəzur dəhlizi həm Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan bölgəsini birləşdirəcək, həm də Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcəkdir. "Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması və BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi ölkəmizin postmünaqişə dövründə ardıcıl humanitar fəaliyyətinin bariz nümunəsidir. Bu Forumda Azərbaycan dünyanın 182 ölkəsini təmsil edən 60 minə yaxın iştirakçıya işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında çağdaş şəhərsalma konsepsiyaları əsasında formalaşan müasir infrastrukturu və hazırda orada təhlükəsiz yaşayan 85 mindən çox azərbaycanlı üçün yaradılan layiqli həyat şəraitini təqdim etmişdir. Ədalətli dünya nizamının və bəşəriyyət üçün təhlükəsiz həyat şəraitinin yaradılmasının tərəfdarı olan Azərbaycan təkcə regionun deyil, eləcə də bütövlükdə Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır. Dost və qardaş ölkələrlə, xüsusən Türk Dünyası ilə birlikdə atılan qətiyyətli addımlar beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır və ailəmiz olan Türk Dünyasını XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevirir", -deyə qeyd olunan müraciətdə həmçinin bildirilib ki, bu önəmli beynəlxalq konfrans nümunəsində ölkələr arasında, həmçinin cəmiyyətdə sağlam əməkdaşlıq və həmrəylik mühitinin qorunması üçün fərqli siyasi maraqları ifadə edən partiyaların konstruktiv dialoqa, məsuliyyətli davranışa və milli maraqlar əsasında birgə fəaliyyətə üstünlük verməsi qarşılıqlı etimadın daha da möhkəmlənməsinə xidmət edir: "Əminəm ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanı xilas etməsi ilə əlamətdar olan Milli Qurtuluş Günü və tarixi Şuşa Bəyannaməsinin imzalanmasının ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının keçirdiyi bu konfrans çevik mexanizm funksiyasını yerinə yetirərək iştirakçı ölkələr arasında davamlı əməkdaşlığın qorunmasına vacib töhfələr verəcəkdir. Konfransın işinə uğurlar, təmsil etdiyiniz dost ölkələrin hər birinə əmin-amanlıq və rifah arzulayıram".

# Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefektini qəbul edib

Prezident İlham Əliyev iyunun 16-da Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti Corc Ceykob Kuvakadı qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkəmizlə Müqəddəs Taxt-Tac arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrimizin inkişafında roluna toxunulub. Bu baxımdan Corc Ceykob Kuvakadın ölkəmizin regionlarına da səfər edəcəyinin əhəmiyyəti qeyd olunub. Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti Roma Papası XIV Leonun və Vatikanın dövlət katibi kardinal Pietro Parolinin salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına və Vatikanın dövlət katibinə çatdırmağı xahiş edib.



Dövlətimizin başçısı Vatikana səfərini və mərhum Roma Papası Fransisklə görüşünü, həmçinin onun ölkəmizə səfərini məmnunluqla xatırlayıb. Söhbət zamanı Azərbaycanda tarixən bütün xalqların və dinlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşaması məmnunluqla qeyd olunub, ölkəmizin tolerantlıq və multikulturalizm məkanı kimi dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına qlobal səviyyədə verdiyi mühüm töhfələr vurğulanıb. Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti qeyd edilib, ölkəmizdə bu cür ikinci kilsənin inşa olunduğu bildirilib.

Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasındakı əməkdaşlığa toxunulub, Fondun bu ölkədə həyata keçirdiyi layihələrin mədəni irsin qorunması və dinlərarası dialoqun təşviqi baxımından rolu qeyd edilib. Görüşdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı Roma Papası XIV Leonun ölkəmizə səfərə dəvəti ilə bağlı məktubunu Corc Ceykob Kuvakada təqdim edib.

# Beynəlxalq konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər



Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə iyunun 15-də "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşa şəhərində keçirilən beynəlxalq konfransın iştirakçıları iyunun 14-də Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət edilib. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Daha sonra "Türk şəhidliyi" abidəsi ziyarət edilib. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçmiş, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini və sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman türk qardaşlarımızın xatirəsi anılıb, abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.


















# "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu"

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib










İyunun 15-də - Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Şuşa şəhərində "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda beynəlxalq konfrans keçirilib.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, tədbirdə iştirak edən dost ölkələrin müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.

"Sülh quruculuğu mexanizmləri: qlobal çağırışlar fonunda partiya diplomatiyası" mövzusunda birinci panel sessiyada çıxış edən moderator, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfrans iştirakçılarını Azərbaycan xalqının çoxəsrlik tarixinin, zəngin mədəniyyətinin və mənəvi dəyərlərinin canlı təcəssümü olan və şanlı Zəfərimizin rəmzinə çevrilən qədim Şuşa şəhərində salamlayıb, dəvəti qəbul edərək tədbirdə iştirak etdikləri üçün minnətdarlığını bildirib.



YAP Sədrinin müavini qeyd edib ki, 15 iyun Azərbaycan xalqı və dövləti üçün olduqca böyük əhəmiyyətə malik iki mühüm hadisə ilə əlamətdardır: "Bundan 33 il əvvəl - 1993-cü il iyunun 15-də xalqımızın Ümummilli Lideri, müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmiş və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi əbədi həkk olunmuşdur. Bu, Azərbaycan dövlətçiliyinin xilası, real müstəqilliyin təmini və qorunub saxlanılması baxımından taleyüklü dönüş nöqtəsi olmuşdur. Vaxtilə dünyanın aparıcı geosiyasi güc mərkəzlərindən biri olan SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa etmiş Azərbaycan ötən əsrin 90-cı illərinin əvvəllərində digər bir sıra postsovet ölkələri kimi ağır sınaqlarla üzləşmişdi. Daxili siyasi böhranın və iqtisadi tənəzzülün dərinləşməsi, qarşıdurmaların və separatizm meyillərinin güclənməsi, xarici təhdidlərin artması fonunda Ermənistanın hərbi təcavüzü Azərbaycanın parçalanması, hətta dünya xəritəsindən silinməsi təhlükəsini meydana çıxarmışdı. Belə bir mürəkkəb şəraitdə Heydər Əliyev xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtmış və Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarmışdır".

Tahir Budaqov vurğulayıb ki, 15 iyun tarixi həm də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlamətdardır: "5 il əvvəl - 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin və əməkdaşlığın təşviqinə xidmət edən və gələcəyə konseptual-strateji baxışı ortaya qoyan bir sənəddir. Bəyannamənin imzalanması ilə keyfiyyətcə yeni mərhələyə yüksələn Azərbaycan-Türkiyə münasibətləri bu gün regional təhlükəsizlik arxitekturasının ən önəmli sütunlarından biri kimi çıxış edir. Bu gün iftixarla söyləyirik ki, Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan Şuşa Bəyannaməsi Ümummilli Liderimizin əbədiyaşar ideyalarını özündə əks etdirən Milli Qurtuluş məfkurəsinin müasir geosiyasi şəraitdə məntiqi davamıdır".







YAP Sədrinin müavini bildirib ki, 2022-ci ildən etibarən Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Milli Qurtuluş Gününə və Şuşa Bəyannaməsinin ildönümünə həsr olunan tədbirlərin 30 ilə yaxın işğal altında qalsa da, öz ruhunu itirməyən Şuşa şəhərində keçirilməsi xüsusi mənəvi, siyasi və ideoloji məna daşıyır: "2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın həmrəyliyi və Azərbaycan Ordusunun şücaəti sayəsində hərbi-siyasi əsarətdən azad olunan Şuşa yalnız Azərbaycanın deyil, türk və islam dünyasının mənəviyyat mərkəzlərindən biri kimi bəşər sivilizasiyasının qiymətli xəzinəsidir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Heydər Əliyev siyasətini əxlaqi-mənəvi dəyərlərə, milli maraqlara və dövrün çağırışlarına uyğun zənginləşdirərək müvəffəqiyyətlə davam etdirməsi xalqımıza misilsiz nailiyyətlər və möhtəşəm Zəfər qazandırmışdır. Hazırda Azərbaycan zəngin dövlətçilik tarixinin ən şanlı mərhələsini yaşayır. Üçrəngli bayrağımızın qürurla dalğalandığı işğaldan azad edilmiş bütün ərazilərimiz, o cümlədən bu gün bir araya toplaşdığımız Şuşa dirçəliş dövrünə qədəm qoyumuşdur. Müasir şəhərsalma konsepsiyaları əsasında həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri mütləq suverenliyini bərpa edən Azərbaycan dövlətinin qüdrətinin və xalqımızın milli iradəsinin ifadəsidir. Bu, təkcə infrastruktur layihələrinin reallaşdırılması deyil, həm də yeni həyatın, təhlükəsiz qayıdışın və dayanıqlı inkişafın təcəssümüdür".



Tahir Budaqovun sözlərinə görə, konfransın mövzusu müasir beynəlxalq münasibətlər sisteminin son dərəcədə aktual məsələlərini özündə ehtiva edir: "Dünyanın mürəkkəb geosiyasi transformasiyalar dövrünü yaşadığı bir zamanda regional sabitlik, təhlükəsizlik və əməkdaşlıq məsələləri beynəlxalq siyasi gündəliyin mərkəzində dayanır. Qlobal güc balansında baş verən dəyişikliklər, regional münaqişələr, enerji və ərzaq təhlükəsizliyi ilə bağlı çağırışlar, iqlim dəyişiklikləri, kiber təhdidlər, iqtisadi-ticari və kommunikasiya marşrutları uğrunda gərgin rəqabət beynəlxalq münasibətlərin xarakterini əhəmiyyətli dərəcədə dəyişmişdir. Bu gün təhlükəsizlik anlayışı yalnız hərbi amillərlə ölçülmür. Enerji, nəqliyyat-logistika, ekoloji, humanitar və rəqəmsal təhlükəsizlik məsələləri də qlobal sabitlik konsepsiyasının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu xüsusda Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət daha ədalətli dünya nizamının bərqərar olmasına istiqamətlənmişdir. Ölkəmiz 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına və 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrlərdə bəşəriyyəti narahat edən qlobal problemlərin aradan qaldırılması, o cümlədən dayanıqlı sülh, etibarlı tərəfdaşlıq naminə hərbi-siyasi təhdidlərin qarşısının alınması, iqtisadi, ekoloji, humanitar və digər sahələrdə təhlükəsizliyin təmin olunması istiqamətində qətiyyətli mövqe nümayiş etdirmiş və mühüm təşəbbüslərlə çıxış etmişdir ki, bu da yeni dünya düzəninə keçid prosesində çoxtərəfli əməkdaşlığa mühüm töhfələr vermişdir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan transmilli layihələr Avropanın enerji təhlükəsizliyinə vacib töhfələr verir və müxtəlif dövlətlər arasında qarşılıqlı etimadı gücləndirən mühüm əməkdaşlıq platformaları yaradır. Ölkəmiz, eyni zamanda, beynəlxalq miqyasda "yaşıl enerji" gündəliyinin fəal iştirakçısıdır. 2024-cü ilin noyabr ayında Azərbaycanın COP29-a, bu ilin may ayında isə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasına uğurla ev sahibliyi etməsi və bunların nəticəsi olaraq iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə və dayanıqlı şəhər inkişafının təşviqinə dair qlobal əhəmiyyətli qərarların qəbulu ölkəmizin beynəlxalq müstəvidə etibarlı tərəfdaş kimi önəmini qabarıq şəkildə bir daha təsdiq etmişdir. Paralel olaraq ölkəmiz Şərqlə Qərbi birləşdirən logistika qovşağı kimi müxtəlif coğrafi məkanlar arasında iqtisadi-ticari əlaqələrin inkişafında və bütövlükdə Avrasiyanın nəqliyyat-kommunikasiya xəritəsinin zənginləşməsində fəal rol oynayır. Azərbaycanın qlobal təhlükəsizliyə müstəsna töhfələrindən biri Cənubi Qafqaz regionunda dayanıqlı sülhün təmin olunmasına yönəlik fəal siyasət yürütməsidir. Bilirsiniz ki, uzun müddət işğala, ikili standartlara və ədalətsizliyə məruz qalmış Azərbaycan öz ərazi bütövlüyünü və tam suverenliyini bərpa etməklə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 30 ilə yaxın kağız üzərində qalan qətnamələrinin icrasını təmin etmiş, regionda ciddi iqtisadi böhrana və humanitar fəlakətə səbəb olan münaqişənin tarixə qovuşmasına nail olmuşdur. Ölkəmizin təşəbbüsü ilə irəli sürülən sülh gündəliyi beynəlxalq hüquq normalarına, eləcə də dövlətlərin ərazi bütövlüyünün qorunması və sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslanır ki, bu da yalnız Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına deyil, bütövlükdə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq şəraitində Cənubi Qafqazın sabit, təhlükəsiz və firavan gələcəyinə xidmət edir".

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, yeni dünya nizamına transformasiya fonunda regional və qlobal təhlükəsizliyin təmin edilməsində partiya diplomatiyasının rolu getdikcə artır: "Müasir dövrdə siyasi partiyalar

davamı 4-cü səhifədə

# "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu"

əvvəli 3-cü səhifədə

təkcə daxili siyasi institutlar deyil, həm də xalqlar arasında etimadın formalaşmasına, dialoqun təşviqinə və beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfə verən aktorlardır. Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu və bu gün ölkə başçısı cənab İlham Əliyevin liderliyi ilə fəaliyyətini uğurla davam etdirən Yeni Azərbaycan Partiyası beynəlxalq əməkdaşlığın inkişafına xüsusi önəm verir. Partiyamızın müxtəlif ölkələrin aparıcı siyasi partiyaları ilə qurduğu əlaqələr, beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyəti, irəli sürdüyü təşəbbüslər və konstruktiv dialoq siyasəti dövlətlərarası münasibətlərin möhkəmlənməsinə xidmət etməklə bərabər, sülh quruculuğu prosesinin vacib elementlərindən biri kimi çıxış edir. Partiyamızın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayından ötən müddət ərzində bir sıra ölkələrin, o cümlədən Türkiyə, Özbəkistan, Qazaxıstan, Ukrayna, Şimali Makedoniya, Çin, Vyetnam, Kuba və Belarusun aparıcı siyasi partiyaları ilə əməkdaşlıq sazişləri, həmçinin YAP Gənclər Birliyi ilə "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının Gənclər Təşkilatı arasında Əməkdaşlıq Memorandumu imzalanmış, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı, Mərkəzçi Demokrat İnternasionalı kimi önəmli siyasi platformalarda YAP-ın fəal iştirakı təmin edilmişdir.

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə istər yerli, istərsə də beynəlxalq ictimaiyyət üçün ciddi maraq doğuran aktual məsələlərə dair tədbirlərin keçirilməsi, o cümlədən "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusuna həsr olunmuş bugünkü konfransımız regional və qlobal miqyasda mövcud geosiyasi reallıqların təhlili, işbirliyi imkanlarının müəyyənləşdirilməsi, yeni ideyaların irəli sürülməsi və bütövlükdə sülh prosesinin irəliyə aparılması baxımından böyük əhəmiyyətə malikdir".

"Konfransımızın panel sessiyalarının mövzuları müasir dövrün siyasi, iqtisadi və humanitar çağırışlarını özündə ehtiva etməklə istər Cənubi Qafqazda, istərsə də daha geniş coğrafiyada davamlı sülh naminə üç əsas istiqaməti - siyasi dialoqu, iqtisadi əməkdaşlığı və postmünaqişə dövründə bərpa-quruculuq fəlsəfəsini əhatə edir. Növbəti plenar sessiyamız "Regional layihələr və transsərhəd əməkdaşlıq: dayanıqlı sülhün iqtisadi əsasları" mövzusuna həsr olunacaqdır. Amma qısaca qeyd etmək istəyirəm ki, sülh yalnız siyasi razılaşmalarla deyil, həm də qarşılıqlı iqtisadi maraqların gerçəkləşdirilməsi ilə möhkəmlənir. Tarixi təcrübə göstərir ki, iqtisadi inteqrasiyanın gücləndiyi regionlarda qarşıdurma riskləri azalır, əməkdaşlıq isə sabitliyin əsas təminatçısına çevrilir. Bu gün Cənubi Qafqazın gələcəyi də məhz açıq kommunikasiyalar, qarşılıqlı faydalı işbirliyi və regional inteqrasiya üzərində qurulmalıdır. Üçüncü plenar sessiyada isə "Postmünaqişə dövründə yenidənqurma: şəhərsalma sahəsində müasir çağırışlar" mövzusu ətrafında aparılacaq fikir mübadiləsi şəhərsalma siyasətində ən son standartların, o cümlədən rəqəmsal texnologiyaların və innovativ həllərin tətbiqi istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi və paylaşılması baxımından mühüm əhəmiyyət kəsb edir. Həyata keçirilən genişmiqyaslı quruculuq işləri yalnız sosial-iqtisadi inkişafın sürətləndirilməsi deyil, həm də regionun turizm potensialının canlandırılması baxımından xüsusi önəm daşıyır. Tarixi irsin bərpası və gələcək nəsillər üçün qorunub yaşadılması, müasir turizm infrastrukturunun formalaşdırılması sivilizasiyalararası dialoqun dərinləşməsinə, xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, mədəni mübadilə və humanitar əməkdaşlığın genişlənməsinə əlverişli zəmin yaradır. Bütün bunlar isə öz növbəsində regionda inteqrasiyanın təşviqinə və davamlı sülhün təmin olunmasına xidmət edən mühüm amillər kimi çıxış edir",- deyə Tahir Budaqov əlavə edib.




YAP Sədrinin müavini vurğulayıb ki, sülh, təhlükəsizlik və firavanlıq naminə səylərin birləşdirilməsi dövlətlərin gələcək nəsillər qarşısında başlıca siyasi məsuliyyətidir: "Bu gün Şuşadan verilən mesajlar yalnız Cənubi Qafqaza deyil, bütün dünyaya ünvanlanır. Bu çağırışların mahiyyəti ondan ibarətdir ki, güclü dövlətçilik, qarşılıqlı hörmət, beynəlxalq hüquq normalarına əsaslanan fəaliyyət və bərabərhüquqlu əməkdaşlıq davamlı sülhün ən etibarlı təminatçısıdır. Konfransımızın regionda sülh quruculuğuna önəmli töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inamımı ifadə edərək hər birinizə fəaliyyətinizdə uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm".

Türkmənistanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Qurbanmammet Elyasov isə çıxışında qeyd edib ki, türkmən xalqı ilə Azərbaycan xalqı arasında əlaqələr əsrlər boyu möhkəm təməl üzərində inkişaf etmişdir: "Tarixi köklər, ortaq dil və milli-mənəvi dəyərlər xalqlarımız arasında qardaşlıq və qarşılıqlı etimad mühiti formalaşdırmışdır. Ölkələrimiz arasında münasibətlər həm də Xəzər dənizi vasitəsilə strateji yaxınlığa əsaslanır. Çünki ölkələrimiz bu dənizlə beynəlxalq bazarlara çıxır, ticari-iqtisadi əlaqələr qurur. Avropa ilə Asiya arasında ən mühüm ticarət yolları Türkmənistan və Azərbaycandan keçərək hər iki dövləti qlobal logistika zəncirinin vacib halqasına çevirir".

O vurğulayıb ki, Xəzər dənizinin hər iki sahilində yaşayan türkmən və Azərbaycan xalqları üçün sülhün, firavanlığın və xoşbəxt həyatın təmin edilməsi, siyasi, sosial-iqtisadi və humanitar sahələrdə əhəmiyyətli irəliləyişlər yalnız ölkələrimizin inkişafına deyil, həm də Orta Asiya və Cənubi Qafqazda sabitliyin möhkəmləndirilməsinə, yeni şəraitdə beynəlxalq münasibətlərin inkişaf etdirilməsinə müsbət təsir göstərir: "Bu baxımdan, müstəqil və bitərəf Türkmənistanın sabitlik və təhlükəsizliyi möhkəmləndirməyə, qarşılıqlı güvəni artırmağa və əməkdaşlığı inkişaf etdirməyə yönəlmiş xarici siyasət və Azərbaycan Respublikasının Cənubi Qafqazı sülh, sabitlik və əməkdaşlıq məkanına çevirmək üçün həyata keçirdiyi strateji təşəbbüslər müasir beynəlxalq münasibətlərdə xüsusi əhəmiyyət kəsb edir. Son illərdə beynəlxalq ticarət, nəqliyyat və logistika sektorunda əhəmiyyətli dəyişikliklərin şahidi olduq. Bu çərçivədə Şərqi Asiya ilə Avropa arasında etibarlı əlaqəni təmin edən Orta Dəhlizin əhəmiyyəti daim artmaqdadır".










Qurbanmammet Elyasov bildirib ki, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər dənizinin iki sahilini birləşdirən dostluq və qardaşlıq körpüsünü daha da möhkəmləndirmək üçün böyük işlər görürlər: "Türkmənistan Demokrat Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında qurulmuş əməkdaşlığın gələcəkdə uğurla davam edəcəyinə və xalqlarımız arasında dostluq və qardaşlığın daha da inkişafına xidmət edəcəyinə olan inamımı bildirirəm".

Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri, partiyanın parlament fraksiyasının sədri Aktam Xaitov çıxışında Azərbaycan və Özbəkistanın ortaq tarixə, mədəniyyətə və dəyərlərə malik qardaş ölkələr olduğunu qeyd edib: "Bu gün ölkələrimiz arasındakı münasibətlər öz tarixinin ən yüksək zirvəsinə ucalmışdır", deyən A.Xaitov Azərbaycanın inkişaf yolunu dərin hörmət və rəğbətlə izlədiklərini, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin möhtəşəm uğurlar qazandığını, ərazi bütövlüyünü tam bərpa etdiyini, azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işlərini uğurla və sürətlə davam etdirdiyini qeyd edib.

Yeni Azərbaycan Partiyasının Azərbaycanda islahatların və sabitliyin etibarlı dayağı olduğunu qeyd edən natiq 2024-cü ilin iyun ayında təmsil etdiyi partiya ilə Yeni Azərbaycan Partiyası arasında Əməkdaşlıq Memorandumu imzalandığını vurğulayıb: "Bu mühüm sənəd səmərəli qarşılıqlı fəaliyyəti təmin etməklə yanaşı, ölkələrimiz arasındakı Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin müvəffəqiyyətlə reallaşdırılmasına da xidmət edir".

Aktam Haitov çıxışında qeyd edib ki, bu gün beynəlxalq münasibətlər sistemi transformasiya prosesini yaşayır: "Geosiyasi rəqabətin güclənməsi, regional münaqişələr, iqtisadi böhranlar, iqlim dəyişikliyi və qlobal təhlükəsizliyə yönələn təhdidlər dövlətlərdən yeni yanaşmalar tələb edir. Belə bir mürəkkəb şəraitdə qarşılıqlı dialoq, etimad və əməkdaşlıq prinsipləri hər zamankından daha vacibdir".

Natiq Özbəkistanın sülhün qorunması və sabitliyin təmin edilməsi sahəsində dəyərli təcrübə topladığını, qısa müddət ərzində regionda etimad və qarşılıqlı hörmət mühiti formalaşdığını qeyd edərək Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı kimi qəbul edilməsinin tarixi qərar olduğunu bildirib.

O, beynəlxalq münasibətlər sistemində partiya diplomatiyasının əhəmiyyətinin durmadan artdığını qeyd edərək müxtəlif təcrübə mübadiləsinin inkişaf etdirilməsinin vacib olduğunu vurğulayıb: "Eyni zamanda, gənclər siyasəti sahəsində birgə çalışmalı və nüfuzlu beynəlxalq platformalarda sülh, tolerantlıq, həmrəylik və mehriban qonşuluq dəyərlərini birlikdə və fəal şəkildə təşviq etməliyik. Biz inanırıq ki, siyasi partiyalarımız arasındakı sıx əməkdaşlıq və xalqlarımız arasındakı dostluq telləri ölkələrimizə yeni uğurlar qazandıracaqdır".










Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsi Xarici Əlaqələr Komitəsinin Tədqiqat və çoxtərəfli əlaqələr departamentinin baş direktoru Sayavonq Bounyadet çıxışında qeyd edib ki, sürətlə dəyişən və getdikcə mürəkkəbləşən beynəlxalq şəraitdə çoxqütblü dünyanın formalaşması dövrümüzün müəyyənedici meyillərdən birinə çevrilmiş, beynəlxalq birliyin arzu və istəklərini özündə əks etdirmişdir. Eyni zamanda, çağdaş dünyamız çoxşaxəli çətin sınaqlarla üzüzədir və bu amillər yeni imkanlar da yaradır.

O bildirib ki, Cənubi Qafqaz böyük strateji əhəmiyyət daşıyan bir regiondur və Avropa ilə Asiya arasında körpü rolunu oynayır: "Burada sülhün və sabitliyin qorunması yalnız region ölkələri deyil, həm də qlobal təhlükəsizlik üçün son dərəcə vacibdir".

Gərginliyin azaldılmasına, qarşılıqlı etimadın gücləndirilməsinə və Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş bütün səyləri dəstəklədiklərini vurğulayan Sayavonq Bounyadet əminliyini ifadə edib ki, regional məsləhətləşmə mexanizmlərinin yaradılması, mədəni və sosial mübadilələr, nəqliyyat və əlaqə şəbəkələrinin inkişafı, partiyalar və xalqlararası diplomatiya sülh prosesinin irəli aparılmasının mühüm mexanizmləridir.

Konfransın əhəmiyyətini yüksək dəyərləndirən Sayavonq Bounyadet Laos Xalq İnqilabi Partiyasının sülh, ədalət və dayanıqlı inkişaf üzərində qurulmuş bir dünya yaratmaq üçün Yeni Azərbaycan Partiyası ilə, həmçinin dünyanın müxtəlif regionlarından olan dost siyasi partiyalarla əməkdaşlığı və sıx koordinasiyanı daha da möhkəmləndirməyə hazır olduğunu bildirib.

Moldova Respublikası Parlamentinin üzvü Pavel Voyku partiya diplomatiyasının müasir beynəlxalq münasibətlərdə sülhün təmin olunmasında mühüm vasitə kimi çıxış etdiyini bildirib. O qeyd edib ki, dünya sürətlə dəyişir və beynəlxalq təhlükəsizlik sisteminin əsas komponentləri sayılan institutlar ciddi böhranla üz-üzə qalıb: "Ənənəvi dövlətlərarası diplomatiya çox vaxt bürokratik maneələr və ideoloji qütbləşmə səbəbindən çevik qərarvermə imkanlarını itirir. Bu şəraitdə partiya diplomatiyası daha açıq, birbaşa və praqmatik dialoq üçün alternativ platforma kimi ön plana çıxır".

Pavel Voyku Azərbaycanın təcrübəsinə də toxunaraq bildirib ki, ölkə beynəlxalq hüququn prinsipləri və milli iradə əsasında ərazi bütövlüyünü bərpa etməklə yanaşı, regionda yeni iqtisadi reallıq formalaşdırır: "Bu təcrübə Moldova üçün də mühüm örnəkdir və ardıcıl dövlət siyasətinin real nəticələr verdiyinin göstəricisidir".

Parlament üzvü qeyd edib ki, Moldova hazırda mürəkkəb geosiyasi proseslərin mərkəzində yerləşir, ona görə də həm Şərq, həm də Qərb istiqamətində əməkdaşlığa əsaslanan balanslı xarici siyasət yürütməlidir. O əlavə edib ki, ölkənin əsas prioritetləri enerji təhlükəsizliyi, iqtisadi sabitlik və sosial rifahdır.

Pavel Voyku partiya diplomatiyasının beynəlxalq münasibətlərdə etimadın gücləndirilməsi baxımından yeni imkanlar yaratdığını bildirib. O, Moldovanın Azərbaycanla münasibətləri yüksək dəyərləndirdiyini və partiyalararası dialoqun genişləndirilməsində maraqlı olduğunu bildirib. Voyku onu da əlavə edib ki, bu cür platformalar beynəlxalq sabitliyin möhkəmləndirilməsi və yeni əməkdaşlıq imkanlarının yaradılması baxımından mühüm önəm kəsb edir.

"Regional layihələr və transsərhəd əməkdaşlıq: dayanıqlı sülhün iqtisadi əsasları" mövzusunda ikinci panel sessiyada moderator, Türkiyə Bö-

davamı 5-ci səhifədə

# “Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu”

əvvəli 4-cü səhifədə

yük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım qeyd edib ki, dünya tarixən bir çox böhranlarla üzləşmişdir: “Bu gün yaşadığımız problemlər yalnız müəyyən bölgələri deyil, bütün bəşəriyyəti əhatə edən qlobal səviyyəyə çatmışdır. Müharibələr, terrorizm, nizamsız miqrasiya, iqtisadi dalğalanmalar, enerji təhlükəsizliyi, iqlim dəyişikliyi, kiber hücumlar, dezinformasiya və süni intellekt çağının özü ilə gətirdiyi yeni risklər beynəlxalq sistemi hər ötən gün daha mürəkkəb hala gətirməkdədir. Bu səbəbdən sülhün qorunması və sabitliyin gücləndirilməsi artıq yalnız dövlətlərin apardığı klassik diplomatiya fəaliyyətləri ilə mümkün deyildir. Parlamentlərin, siyasi partiyaların, akademik dairələrin, media qurumlarının və vətəndaş cəmiyyətlərinin də bu proseslərdə fəal rol oynaması zəruridir. Məhz bu mərhələdə partiya diplomatiyası ölkələr arasında etimadın yaradılmasında, dialoq kanallarının əlaqələndirilməsində və ortaq həllərin işlənib hazırlanmasında strateji bir vasitə kimi öndə dayanır”.












O qeyd edib ki, 15 iyun 2021-ci il tarixində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” iki qardaş dövlət arasında münasibətləri inkişaf etdirən bir sənəd kimi müstəsna əhəmiyyət kəsb edir: “Şuşa Bəyannaməsi, eyni zamanda, Cənubi Qafqazda daimi sülhün, təhlükəsizliyin, iqtisadi inkişafın və regional əməkdaşlığın strateji yol xəritəsidir. Xüsusilə Orta Dəhlizdən enerji xətlərinə, nəqliyyat layihələrindən rəqəmsal həllər sahəsində əməkdaşlıqlara qədər inkişaf etdirilən ortaq layihələr regionda ticarətin genişlənməsinə, investisiya imkanlarının artmasına və xalqlar arasında qarşılıqlı əlaqələrin genişlənməsinə töhfə verir”.

Şamil Ayrım vurğulayıb ki, Şuşa Bəyannaməsi “Bir millət, iki dövlət” anlayışını strateji müttəfiqlik səviyyəsinə yüksəldən tarixi bir dönüş nöqtəsidir: “Həmçinin 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan təxminən otuz illik işğala son qoyaraq beynəlxalq hüququn tanıdığı tarixi ədaləti təmin etdi. 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan tam suverenliyini bərqərar etdi və beləliklə, regionda yeni siyasi və geosiyasi reallıqlar formalaşdı. Qarabağ və Şərqi Zəngəzurda ucalan hər yeni şəhər, tikilən məktəblər, yeni yollar və keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı postmüharibə dövrünün uğurlu nəticələrinin əyani göstəricisidir. İşğaldan azad edilən bölgələrdə aparılan yenidənqurma və bərpa işləri dünya miqyasında nümunə göstəriləcək bir inkişaf hərəkatına çevrilmişdir”.

O bildirib ki, bu gün sülh təşəbbüslərinin qarşısında duran maneələr yalnız hərbi təhdidlərlə məhdudlaşmır: “Dezinformasiya, kiber hücumlar, rəqəmsal manipulyasiyalar və ayrı-seçkiliyi təşviq edən çağırışlar cəmiyyətlər arasında inam və etimadı zədələyə bilər. Xüsusilə süni intellekt çağında doğru məlumata çıxış və informasiya təhlükəsizliyi beynəlxalq təhlükəsizliyin yeni ölçülərindən biri halına gəlmişdir. Bu səbəbdən siyasi partiyaların, parlamentlərin və beynəlxalq qurumların demokratik dəyərləri qorumaq mövzusunda məsuliyyətləri hər zamankından daha üstündür. Belə ki, yaxın günlərdə Ermənistanda həyata keçirilən parlament seçkilərinin ardından ortaya çıxan mənzərə region xalqlarının sabitlik, normallaşma və sülh gözləntisini aydın şəkildə üzə çıxarır”.

Ş.Ayrım qeyd edib ki, Şuşadan dünyaya ünvanlanan çağırış regional əməkdaşlığın genişləndirilməsi, nəqliyyat və enerji dəhlizlərinin inkişafı, ticarət yollarının şaxələndirilməsi, ortaq investisiya təşəbbüslərinin təşviqi və xalqlar arasında qarşılıqlı etimada söykənən münasibətlərin gücləndirilməsindən ibarətdir.



Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey çıxışında qeyd edib ki, bəşəriyyətin gələcək taleyi və qlobal inkişaf meyilləri barədə düşünən Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab Si Cinpin bütün ölkələrin qarşılıqlı faydalı əməkdaşlığını təmin etmək məqsədilə “Bir kəmər, bir yol” təşəbbüsünü və Qlobal İnkişaf Təşəbbüsünü irəli sürüb. Səfir bildirib ki, bu təşəbbüs elan edildiyi gündən 150-dən çox ölkə və 30-dan artıq beynəlxalq təşkilatın dəstəyini qazanıb.

Çin ilə Azərbaycanın yaxşı dost və tərəfdaş olduğunu deyən Lu Mey əlavə edib ki, son illərdə Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə iki dövlət arasında münasibətlər hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ölkələrarası ənənəvi dostluq gündən-günə dərinləşir, qarşılıqlı etimad möhkəmlənir: “Xüsusi vurğulamaq lazımdır ki, Çin və Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsünün yüksək keyfiyyətli reallaşması üzərində birgə işləyir, Qlobal İnkişaf Təşəbbüsünü ortaq şəkildə həyata keçirir və regional əməkdaşlığı fəal surətdə inkişaf etdirirlər. Çin ilə Azərbaycan arasında ikitərəfli ticarətin həcmi üç il ardıcıl olaraq rekord səviyyəyə çatıb. Çin tərəfi Azərbaycanda külək enerjisi, avtomobil istehsalı, informasiya-kommunikasiya texnologiyaları, tikinti materiallarının istehsalı və digər sahələrdə layihələr həyata keçirir və daha sıx regional iqtisadi tərəfdaşlığın qurulmasına töhfə verir”.

Səfirin sözlərinə görə, hər iki ölkənin hakim partiyaları olaraq Çin Kommunist Partiyası və Yeni Azərbaycan Partiyası sıx təmaslar qurmuş, iki ölkənin liderləri tərəfindən əldə edilmiş mühüm razılaşmaları fəal surətdə həyata keçirmiş, dövlət idarəçiliyi sahəsində təcrübə mübadiləsini dərinləşdirmiş, kadrlar, kütləvi informasiya vasitələri və analitik mərkəzlər arasında əlaqələri inkişaf etdirmiş, bununla da Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin davamlı inkişafına mühüm töhfə vermişdir”.









2026-cı ildə Çin Kommunist Partiyasının yaradılmasının 105-ci ildönümünün qeyd olunduğunu vurğulayan xanım Lu Mey qeyd edib ki, mövcud qlobal çağırışlar qarşısında bu nüfuzlu partiya YAP da daxil olmaqla dünyanın müxtəlif ölkələrinin siyasi partiyaları və təşkilatları ilə birgə Qlobal İnkişaf, Qlobal Təhlükəsizlik, Qlobal Sivilizasiya və Qlobal İdarəetmə təşəbbüslərini fəal şəkildə həyata keçirməyə, dünyada hər yerində sülhün və inkişafın qorunmasına yeni təkan verməyə hazırdır.

Kamboca Xalq Partiyası Mərkəzi Komitəsi Daimi Komitəsinin üzvü, Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti Tun Vathana çıxışında Azərbaycanın tarixi rəmzi olan Şuşa şəhərində bu mühüm konfransa ev sahibliyi etdiyi üçün Yeni Azərbaycan Partiyasına dərin minnətdarlığını bildirib. O qeyd edib ki, konfrans iştirakçıları buraya təkcə fikir mübadiləsi aparmaq üçün deyil, həm də dayanıqlı sülhə və birgə rifaha nail olmağa kömək edəcək tərəfdaşlıqlar qurmaq üçün toplaşıblar: “Biz hazırda dünyanın geosiyasi gərginliklər, iqtisadi qeyri-müəyyənliklər və ciddi təhlükəsizlik çağırışları ilə səciyyələnən bir yol ayrıcında olduğu dövrdə yaşayırıq. İstər Azərbaycan, istər Kamboca, sülhün, sabitliyin və rifahın tərəfdarıdır. Bu yolla sülh təkcə əldə edilmir, həm də gələcək nəsillər üçün davamlı olur. Həqiqi və qalıcı sülh üç əsas əsas amilə əsaslanır: beynəlxalq hüquqa hörmət, iqtisadi əməkdaşlıq və qarşılıqlı faydanı təşviq edən uzunmüddətli tərəfdaşlıq. Bu amillər olduqda sülh daha dayanıqlı, davamlı və inklüziv əhatəli xarakter alır”.

Tun Vathana bildirib ki, iqtisadi rifah sülhün, sabitliyin və ləyaqətin təməlidir: “Paylaşılan imkanlar rifaha öz dəyərini qazandırır. Kamboca münaqişədən əziyyət çəkən bir ölkədən Cənub-Şərqi Asiyanın ən sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilmişdir. Bu tərəqqi təkcə daxili islahatlar sayəsində deyil, həm də regional əməkdaşlıq və Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasına (ASEAN), eləcə də dünyanın digər regionlarına iqtisadi inteqrasiya nəticəsində mümkün olmuşdur”.

Tun Vathana onu da vurğulayıb ki, Cənubi Qafqaz Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanı birləşdirən strateji mövqeyə malikdir: “Regionun enerji resursları, tranzit marşrutları və böyümədə olan rəqəmsal iqtisadiyyatı mühüm imkanlar vəd edir. Ermənistan və Azərbaycan arasında imzalanacaq  sülh sazişi bütün regionda iqtisadi perspektivləri və regional təhlükəsizliyi əhəmiyyətli dərəcədə gücləndirəcəkdir. İndiki məqamda iqtisadi fəaliyyətləri Qafqaz hüdudlarından kənara və dünyanın digər regionlarına genişləndirmək imkanlarını araşdırmağın vaxtıdır. Kamboca bu prosesə qoşulmaqdan məmnunluq duyacaqdır. Sərhədlərarası ticarətin təşviqi, sərhədyanı iqtisadiyyatların qurulması və infrastruktura investisiya qoyuluşu mühüm əhəmiyyət kəsb edir. Xüsusi iqtisadi zonalar və turizm iqtisadi artımı stimullaşdırır. Turizm insanlar arasında qarşılıqlı anlaşmanı və dözümlülüyü möhkəmləndirir. Bu təşəbbüslər sərhədləri ayırıcı xətlərdən əməkdaşlıq körpülərinə çevirir”.

Ukrayna Ali Radasının Humanitar və informasiya siyasəti komitəsinin sədri, ATƏT Parlament Assambleyasında Ukrayna nümayəndə heyətinin rəhbəri Mikita Poturayev çıxışında qeyd edib ki, sülh sadəcə sazişlər imzalamaqla və ya hərbi əməliyyatları dayandırmaqla əldə olunmur: “Dayanıqlı sülh o zaman qurulur ki, insanlar sabitliyin real bəhrələrini görsünlər - yollar, dəmir yolları, enerji şəbəkələri, müəssisələr, universitetlər və icmalar münaqişə ilə bölünmək əvəzinə, əməkdaşlıq vasitəsilə bir-birinə bağlansınlar”.

Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəliyə aparılmasında nümayiş etdirilən siyasi iradəni xüsusi qeyd edib: “Azərbaycanın infrastrukturu yenidən qurmaq, iqtisadi fəaliyyəti bərpa etmək və məcburi köçkünlərin geri qayıtması üçün şərait yaratmaq istiqamətindəki heyranedici səylərini yüksək qiymətləndiririk. Uğurlu yenidənqurma təkcə binalar, yollar və kommunal xidmətlərdən ibarət deyil. Bu, insan ləyaqətinin bərpası və sülhün insanların həyatına real faydalar gətirdiyinin nümayiş etdirilməsidir”.

Cənubi Qafqazda sabitliyə və iqtisadi inkişafa mühüm töhfə verən tərəf kimi Türkiyənin oynadığı konstruktiv rolu da qeyd edən natiq mühüm məqam kimi region ölkələrinin gələcəklərini özlərinin formalaşdırmaq qabiliyyətinin getdikcə artmasını qeyd edib. Mikita Poturayev Cənubi Qafqazın qarşısında tarixi bir imkan yarandığını, yenilənən arxitekturada Azərbaycanın təkcə enerji təchizatçısı deyil, həm də Xəzər və Qara dəniz regionlarını, Mərkəzi Asiyanı, Türkiyəni və Avropanı birləşdirən mühüm nəqliyyat və logistika mərkəzinə çevrildiyini qeyd edib.

Mikita Poturayev vurğulayıb ki, Ukrayna Azərbaycan ilə dostluq, tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək niyyətinə sadiq qalır: “Qara dənizdən Xəzər dənizinə qədər uzanan geniş regionumuzun gələcəyi suverenlik, qarşılıqlı hörmət, iqtisadi açıqlıq və müstəqil dövlətlər arasında əməkdaşlıq üzərində qurulmalıdır”.

Pakistanın MUSLİM İnstitutunun İctimaiyyətlə əlaqələr üzrə məsul şəxsi və xüsusi nümayəndəsi Malik Asif Tanver çıxışında konfransın məhz Şuşada keçirilməsinin rəmzi məna daşıdığını vurğulayıb. O qeyd edib ki, Cənubi Qafqaz hazırda tarixi inkişaf mərhələsindədir. Pakistanlı nümayəndə bildirib ki, müasir dünya-

davamı 6-cı səhifədə

# “Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu”

əvvəli 5-ci səhifədə

da iqtisadi inkişaf, texnoloji tərəqqi və resurslara artan tələbat qlobal rəqabəti daha da gücləndirir. Onun sözlərinə görə, rəqabətin əməkdaşlığa, qarşılıqlı asılılığın isə sabitliyə çevrilməsi üçün regional əməkdaşlıq mexanizmlərinin formalaşdırılması vacibdir.

Malik Asif Tanver vurğulayıb ki, regional layihələrdə iştirak edən bütün dövlətlər həmin təşəbbüslərin faydasını paylaşmalı, ortaq maraqlar əsasında əməkdaşlıq etməlidirlər.






Çıxışında Çin-Pakistan İqtisadi Dəhlizi (CPEC), Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və Zəngəzur dəhlizi kimi layihələrə də toxunan natiq bildirib ki, bu təşəbbüslər regional inteqrasiyanın və iqtisadi əməkdaşlığın uğurlu nümunələridir.

Malik Asif Tanver qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə öz coğrafi mövqeyini uğurla strateji üstünlüyə çevirərək Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm mərkəzə çevrilib. Pakistanın Azərbaycanla qardaşlıq münasibətlərinə böyük önəm verdiyini bildirən natiq regional əlaqələndirməni, iqtisadi inkişafı və dayanıqlı sülhü təşviq edən təşəbbüsləri tam dəstəklədiklərini diqqətə çatdırıb.

Malik Asif Tanver, həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlər arasında iqtisadi inteqrasiyanın gücləndirilməsi, ticarətin asanlaşdırılması və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi baxımından mühüm rol oynaya biləcəyini vurğulayıb. O qeyd edib ki, dayanıqlı sülh yalnız ticarət dəhlizləri ilə deyil, eyni zamanda mədəni, akademik və intellektual əməkdaşlıq vasitəsilə möhkəmlənir. Bu baxımdan Muslim İnstitutu ilə Azərbaycanın aidiyyəti qurumlarının birgə həyata keçirdiyi konfransların, mədəni təşəbbüslərin və tədqiqat layihələrinin xalqlar arasında əlaqələrin inkişafına töhfə verdiyini bildirib.

Sonda Malik Asif Tanver iqtisadi əməkdaşlıqla yanaşı, insanlar arasında qurulan münasibətlərin də dayanıqlı sülh və regional inkişafın güclü təməli olduğunu vurğulayaraq Azərbaycan-Pakistan dostluğunun daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.







“Postmünaqişə dövründə yenidənqurma: şəhərsalma sahəsində müasir çağırışlar” mövzusunda üçüncü panel sessiyada moderator, Belarusun “Belaya Rus” Partiyasının sədri Olqa Çemodanova çıxış edərək vurğulayıb ki, Milli Qurtuluş Günündən başlanan uğurlu siyasət nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirmiş, dost dövlətlərlə əməkdaşlığını ardıcıl şəkildə genişləndirmişdir. Onun sözlərinə görə, sabitlik və inkişaf kursu Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə, xarici siyasətdə yeni uğurlar qazanmasına geniş imkanlar yaradıb. Azərbaycan-Belarus əlaqələrinin dinamik inkişafı da qarşılıqlı faydalı əməkdaşlığın uğurlu nəticələrindən biri kimi dəyərləndirilir.

Partiya sədri qeyd edib ki, atom energetikası tarixində ən böyük qəzadan sonra Belarus ərazisinin təxminən dörddə biri radiasiyaya məruz qalmışdır ki, bu ərazilərdə də ölkə əhalisinin beşdə biri yaşayırdı: “479 yaşayış məntəqəsinin mövcudluğuna son qoyulmuşdur. Dövlət siyasəti insanların sağlamlığı üçün radiasiya riskinin azaldılmasına və onların həyat fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsinə yönəlmişdir. Yaşayış sahələri ilə təminat, kompensasiya ödənişləri, müavinətlər və güzəştlər verilməklə əhalinin köçürülməsi radioaktiv tullantıların basdırılması, çirklənmiş ərazilərə girişin məhdudlaşdırılması, şüalanma dozalarının maksimum azaldılması üçün genişmiqyaslı tədbirlər kompleksi çirklənmiş qida məhsullarının istehlakının məhdudlaşdırılması həyata keçirilmişdir”.

O bildirib ki, qəzanın nəticələrinin aradan qaldırılması və zərər çəkmiş regionların sosial-iqtisadi inkişafı üzrə altı dövlət proqramı reallaşdırılmışdır: “Hazırda 2026-2030-cu illəri əhatə edən “Əhalinin Təhlükəsizlik İnfrastrukturu” Dövlət Proqramı qüvvədədir. Qəzadan sonrakı dövr ərzində radioaktiv çirklənmə zonalarından 1657 yaşayış məntəqəsi və ya radioaktiv çirklənmə ərazisində yerləşən ümumi yaşayış məntəqələrinin 45 faizi (təxliyə edilmiş və əhalisi köçürülmüş yaşayış məntəqələri nəzərə alınmadan) normal həyat fəaliyyəti şəraitinə qaytarılmışdır. Çernobıl AES-də baş vermiş qəzadan bəri radioaktiv parçalanma nəticəsində ölkə ərazisinin Sezium-137 ilə çirklənmiş sahəsi 1,8 dəfə, Stronsiyum-90 ilə çirklənmə sahəsi isə, demək olar ki, 1,9 dəfə azalmışdır. Radioaktiv çirklənmə zonalarında yerləşən yaşayış məntəqələrinin sayı 45% azalmışdır.

Olqa Çemodanova vurğulayıb ki, zərər çəkmiş əhalinin sosial müdafiəsi üzrə müxtəlif güzəşt və kompensasiyaların verilməsini, pulsuz sanatoriya-kurort müalicəsini və sağlamlaşdırma tədbirlərini, eləcə də digər yardımları nəzərdə tutan tədbirlər sistemi həyata keçirilir: “Bu prosesdə ilkin və əsas diqqət uşaqlara yönəldilir. Zərər çəkmiş regionların dirçəlişini və dayanıqlı sosial-iqtisadi inkişafını təmin etməyə yönəlmiş işlər (yeni iş yerlərinin açılması, sahibkarlıq üçün əlverişli şəraitin yaradılması, o cümlədən güzəştli vergitutma, kreditləşmə) davam etdiriləcəkdir”.

Belarus nümayəndəsi əlavə edib ki, çoxsəviyyəli təhlükəsizlik sistemi ilə təchiz olunmuş Belarus AES ölkənin bütün elektrik enerjisinin təxminən 40%-ni istehsal edir: “Bu da elektrik enerjisinin idxalından tamamilə imtina etməyə və istixana qazlarının emissiyasını azaltmağa imkan vermişdir. Belarus özünü onilliklər boyu etibarlı, ekoloji cəhətdən təmiz və əlçatan enerji mənbəyi ilə təmin etmiş, eyni zamanda, onu əhali üçün də sərfəli etmişdir. Ölkəmiz elektrik enerjisinin qiymətinin ən aşağı olduğu üç Avropa dövlətinin sırasına daxildir”.

Tacikistan Xalq Demokratik Partiyasının sədr müavini Umeda Abdullozoda bildirib ki, zəngin tarixi irsə, mədəni müxtəlifliyə və mühüm geostrateji mövqeyə sahib olan Cənubi Qafqaz həmişə diqqət mərkəzində olub: “Bu gün regional təhlükəsizlik qlobal sabitlik və davamlı inkişafla ayrılmaz şəkildə bağlıdır. Cənubi Qafqazda sabitliyin gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial mövcuddur”.

Umeda Abdullozodanın sözlərinə görə, Tacikistan Xalq Demokratik Partiyası ölkənin aparıcı siyasi qüvvəsi kimi həm milli, həm də beynəlxalq səviyyədə sülhün və sabitliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir: “Biz əminik ki, məhz regional əməkdaşlıq müasir çağırışlara və təhdidlərə cavab vermək üçün ən təsirli vasitələrindən biridir. Bu kontekstdə Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığımızı qarşılıqlı etimada, ortaq dəyərlərə və konstruktiv siyasi dialoqa əsaslanan tərəfdaşlığın uğurlu nümunəsi kimi yüksək dəyərləndiririk”.

Tacikistan Xalq Demokratik Partiyasının sədr müavini qeyd edib ki, müharibəni yaşayan və sülh yaratmağı bacaran ölkə kimi Tacikistan bu mühüm məsələlərin həqiqi dəyərini anlayır: “Bizim təcrübəmiz inandırıcı şəkildə təsdiqləyir ki, möhkəm sülhə yalnız dialoq, milli barışıq və inklüziv inkişaf vasitəsilə nail olmaq mümkündür. Regionlarımızın və bütövlükdə, dünyanın gələcəyi əməkdaşlığa, qarşılıqlı etimada və effektiv həllərin birlikdə axtarışına hazırlıqdan asılıdır. Cənubi Qafqazda sülh quruculuğu yalnız region ölkələrinin deyil, beynəlxalq birliyin ümumi məsuliyyətidir”.

Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri Zülfikar Zeynula çıxışında müzakirə edilən mövzunun aktuallığını vurğulayaraq qeyd edib ki, Balkan regionunda bu məsələyə yanaşma xüsusilə əhəmiyyətlidir: “Çünki Balkanlar da Qafqaz kimi uzun illər müharibələr, köçlər, siyasi böhranlar və ictimai sarsıntılar yaşayıb. Yenidənqurma anlayışı yalnız nəzəri çərçivədə deyil, real tarixi təcrübələrə əsaslanan çoxşaxəli bir prosesdir. Bu proses çox zaman yalnız infrastrukturun - yolların, körpülərin və yaşayış binalarının inşası kimi qəbul edilir, lakin əslində, daha geniş məna daşıyır”.

Zülfikar Zeynula bildirib ki, müharibələr və dağıntılar təkcə fiziki infrastruktura deyil, eyni zamanda, ictimai münasibətlərə, sosial-iqtisadi həyata, mədəni mühitə və insanların gələcəyə baxışına ciddi təsir göstərir: “Buna görə də yenidənqurma yalnız mühəndislik və şəhərsalma çərçivəsində qiymətləndirilə bilməz. O əlavə edib ki, bu proses sosial, mədəni və psixoloji aspektləri ilə birlikdə kompleks şəkildə dəyərləndirilməlidir. Bu kontekstdə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində aparılan bərpa və yenidənqurma işləri parlaq nümunədir. Bu ərazilərdə həyata keçirilən layihələr yalnız infrastrukturun yenilənməsi ilə məhdudlaşmır, eyni zamanda, əhalinin doğma yurdlarına qayıdışı, sosial-iqtisadi canlanma, mədəni irsin qorunması və müasir şəhər mühitinin formalaşdırılmasını da əhatə edir. Postmünaqişə dövründə yenidənqurma prosesi üç əsas istiqaməti əhatə edir: fiziki, iqtisadi və ictimai bərpa. Fiziki bərpa infrastrukturun yenilənməsini, iqtisadi bərpa məşğulluq imkanlarının artırılmasını və investisiyaların cəlb olunmasını, ictimai bərpa isə sosial həmrəyliyin və etimad mühitinin gücləndirilməsini nəzərdə tutur”.

Zülfikar Zeynula qeyd edib ki, şəhərsalma yalnız texniki proses deyil, eyni zamanda sosial və mədəni mahiyyət daşıyan strateji sahədir: “Müasir şəhərlər yalnız binalardan ibarət deyil, həm də sosial həmrəylik, mədəni kimlik və ortaq yaşam dəyərlərinin formalaşdığı məkanlardır”.

Z.Zeynula, həmçinin texnoloji transformasiyanın şəhərsalma sahəsinə gətirdiyi imkanlara toxunaraq “ağıllı şəhər” tətbiqləri, rəqəmsal infrastruktur, fəlakətlərin idarə olunması və məlumat əsaslı planlaşdırmanın gələcəyin şəhərləri üçün vacib istiqamətlər olduğunu bildirib. O qeyd edib ki, Türk dövlətlərinin təcrübələri ortaq platformanın formalaşmasına mühüm töhfə verə bilər. Bu kontekstdə Türkiyənin zəlzələdən sonrakı yenidənqurma təcrübəsi, Azərbaycanın azad edilmiş ərazilərdə bərpa işləri və Balkan ölkələrinin çoxmədəniyyətli təcrübəsi xüsusi önəm daşıyır.

Serbiya Tərəqqipərvər Partiyasının İdarə Heyətinin üzvü, Serbiya Milli Assambleyasının üzvü Daniela Nikoliç çıxışında bildirib ki, münaqişədən sonrakı yenidənqurma sadəcə bir tikinti layihəsi deyil: “Bu, insanlara ləyaqətinin qaytarılması, ailələrin geri dönüşü üçün şəraitin yaradılması, etimadın yenidən bərpa olunması və bütöv regionlar üçün inkişafa dair yeni üfüqlərin açılması prosesidir. Bu gün Şuşaya və azad edilmiş digər ərazilərdəki şəhərlərə nəzər salarkən aydın görünür ki, qarşıya qoyulan məqsəd sadəcə vaxtilə mövcud olanı bərpa etmək deyil. Əsas hədəf gələcək nəsillər üçün daha yaxşı, daha müasir, daha dayanıqlı və daha funksional bir mühit qurmaqdır. Müasir şəhərsalmanın əsl mahiyyəti də məhz bundan ibarətdir”.

Daniela Nikoliç  qeyd edib ki, Serbiya irimiqyaslı dağıntılardan sonra yenidənqurma və inkişafın gətirdiyi çağırışları çox yaxşı anlayır. Onun sözlərinə görə, Serbiyanın təcrübəsi göstərir ki, bərpa prosesi yalnız dağıdılmış olanı yenidən tikməkdən ibarət deyil, uzunmüddətli inkişafın təməlini qoymaq deməkdir.

O qeyd edib ki, uğurlu yenidənqurmanın ümumi prinsipləri mövcuddur: “Bunlar qəti siyasi iradənin mövcudluğu, uzunmüddətli planlaşdırma, iqtisadi inkişafın təməli kimi infrastruktura investisiya qoyuluşu və çətin şəraitin öhdəsindən gələrək prosesdən əvvəlkindən daha güclü çıxmaq imkanına olan inamdır. Bunlar məhz bizim bu gün Azərbaycanın inkişafında aydın gördüyümüz prinsiplərdir. Hədəf sadəcə ərazinin rekonstruksiyası deyil, yaşamaq üçün rəqabətədavamlı, dayanıqlı və cəlbedici olan müasir icmaların yaradılmasıdır. Bu gün Azərbaycanda gördüklərimiz məhz bu yanaşmanı əks etdirir. İnfrastrukturun inkişafı ilə yanaşı, regionun mədəni kimliyinin, tarixi irsinin qorunub saxlanmasına böyük diqqət yetirilməsi xüsusilə təqdirəlayiqdir”.

Serbiya ilə Azərbaycan arasındakı münasibətlərin səmimi dostluq, qarşılıqlı hörmət və strateji tərəfdaşlığa bariz nümunə olduğunu qeyd edən natiq güclü siyasi iradə və qarşılıqlı etimad sayəsində əlaqələrimizin tarixin ən yüksək səviyyəsinə çatdığını bildirib. Onun sözlərinə görə, bu gün Azərbaycan çağırışları imkanlara çevirməyin mümkün olduğunu əyani şəkildə göstərir, şəhərləri yenidən qurmağın, uzun müddət münaqişədən əziyyət çəkmiş ərazilərə həyatı yenidən qaytarmağın və gələcəyi böyük inam və iddialı hədəflərlə planlaşdırmağın mümkün olduğunu sübut edir. Daniela Nikoliç Serbiya ilə Azərbaycan arasındakı dostluğun daha da möhkəmlənəcəyini və ölkələrimizin bir-birini dəstəkləməyə davam edəcəyini qeyd edib.

“Gürcü Arzusu - Demokratik Gürcüstan” Partiyasının Gənclər Təşkilatının sədri, Gürcüstan parlamentinin üzvü Varlam Liparteliani postmüharibə dövründə bərpa və yenidənqurma, şəhərsalma siyasəti ilə bağlı fikirlərini bölüşüb.

Varlam Liparteliani bildirib ki, müasir dövrdə münaqişədən sonrakı bərpa anlayışı yalnız dağıdılmış binaların və infrastrukturun yenidən qurulması ilə məhdudlaşmır. Onun sözlərinə görə, bu proses sosial-iqtisadi, demoqrafik siyasəti özündə birləşdirən kompleks yanaşma olmaqla, zərər çəkmiş ərazilərdə təhlükəsiz, layiqli və dayanıqlı yaşayış mühitinin formalaşdırılmasını hədəfləyir.

Gürcüstanın uzun illərdir, silahlı münaqişələrin nəticələri ilə üzləşdiyini qeyd edən parlament üzvü diqqətə çatdırıb ki, bu, ölkə üçün ciddi humanitar və sosial-iqtisadi böhranla nəticələnib.

O vurğulayıb ki, bu reallıqlar şəhərsalma siyasətinin əhəmiyyətini daha da artırıb. Parlament üzvünün sözlərinə görə, postmünaqişə dövründə məqsəd yalnız yaşayış binalarının tikintisi deyil, eyni zamanda müasir mühəndis-kommunikasiya infrastrukturu, nəqliyyat əlçatanlığı, keyfiyyətli təhsil və səhiyyə xidmətləri ilə təmin olunan yaşayış məkanlarının formalaşdırılmasıdır.

Varlam Liparteliani qeyd edib ki, münaqişədən sonrakı inkişaf proqramları yalnız bərpa məqsədlərinə deyil, həm də gələcəyə hesablanmış davamlı və dayanıqlı şəhərlərin formalaşdırılmasına xidmət etməlidir: “Postmünaqişə dövründə bərpa-quruculuq işləri mürəkkəb və uzunmüddətli proses olsa da, düzgün strateji planlaşdırma, müasir şəhərsalma siyasəti və insan amilinə əsaslanan yanaşma sayəsində bu proses dayanıqlı inkişaf, sosial rifah və cəmiyyətin yenilənməsi üçün mühüm imkanlara çevrilə bilər”.

Konfrans Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Konfrans iştirakçıları Şuşa və Laçın şəhərinin tarixi məkanları, aparılan tikinti və bərpa-quruculuq işləri ilə tanış olublar.

# “Dənizlərin enən səviyyəsi, çəkilən sahil xətləri, davamlılıq və qapalı su hövzələrinin gələcəyi: Xəzər dənizi nümunəsi”

## Leyla Əliyevanın təşəbbüsü ilə Bonnda Xəzərin səviyyəsinin azalmasının ekoloji təsirləri müzakirə olunub



Leyla Əliyevanın təşəbbüsü ilə Almaniyanın Bonn şəhərində “Dənizlərin enən səviyyəsi, çəkilən sahil xətləri, davamlılıq və qapalı su hövzələrinin gələcəyi: Xəzər dənizi nümunəsi” mövzusunda yüksəksəviyyəli panel müzakirələri təşkil olunub. AZƏRTAC xəbər verir ki, tədbir iyunun 8-dən 16-dək BMT-nin iqlim sessiyası (June Climate Meetings - SB64) çərçivəsində keçirilib.

IDEA İctimai Birliyinin, BMT-nin Ətraf Mühit Proqramının (UNEP), COP29 Azərbaycan Sədrliyinin və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) tərəfdaşlığı ilə təşkil olunan tədbirin açılışında çıxış edən Leyla Əliyeva dənizlərin, çayların və göllərin hazırda planetimizin ən həssas ekosistemləri sırasında yer aldığını qeyd edib. O, Xəzər dənizində müşahidə olunan səviyyə enməsi, Xəzər suitiləri və digər canlıların sayında azalma kimi məsələlərə toxunub, bu cür çağırışların həllində bilik, təcrübə və davamlı məsuliyyətə əsaslanan yanaşmanın təbliğinin vacibliyini vurğulayıb. IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən su hövzələrinin təmizlənməsi aksiyaları, balıq körpələrinin suya buraxılması və “Bir Damcı” layihəsi kimi təşəbbüslər qeyd olunub, bu cür addımların suya həyat və davamlılıq mənbəyi kimi məsuliyyətli münasibətin formalaşmasına xidmət etdiyi bildirilib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil, COP31-in baş icraçı direktoru, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişmələri nazirinin müavini Fatma Varank və COP30-un baş icraçı direktoru Ana Toni tədbirin rəsmi hissəsində çıxış edərək, Xəzər dənizinin səviyyəsinin enməsi və qapalı su hövzələrinin ekoloji dayanıqlığı ilə bağlı yaranan çağırışların qlobal iqlim gündəliyində diqqət mərkəzində saxlanılmasının vacibliyini vurğulayıblar.

Sonra müzakirələr panel sessiyası formatında davam edib. Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, UNEP-in İqlim dəyişikliyi bölməsinin direktoru Martin Krauze, “Great Whale Conservancy” təşkilatının təsisçisi və icraçı direktoru Maykl Fişbax, IDEA İctimai Birliyinin eksperti Elnur Səfərov, Qazaxıstanın Xəzər Dənizi üzrə Elmi-Tədqiqat İnstitutu və Finlandiyanın Oulu Universitetinin tədqiqatçısı Aziza Baubekova və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) SPECA MPTF Fondunun rəhbəri Kəmalə Hüseynli Xəzər dənizində suyun səviyyəsinin enməsinin ekoloji, elmi və sosial-iqtisadi təsirləri ətrafında fikir mübadiləsi aparıblar. Panel müzakirələrinin iştirakçıları bu kimi tədbirlərin elmi bilik və təcrübənin paylaşılması, habelə yeni tərəfdaşlıq imkanlarının yaradılması baxımından mühüm platforma olduğunu qeyd ediblər. Tədbir çərçivəsində, həmçinin Xəzər dənizinin ekoloji problemlərinə həsr olunmuş qısametrajlı sənədli film nümayiş olunub. Panel müzakirələri interaktiv sual-cavab sessiyası ilə yekunlaşıb.



Leyla Əliyeva həmçinin BMT-nin Baş katibinin müavini və Səhralaşma ilə mübarizə üzrə Konvensiyasının (UNCCD) icraçı katibi Yasmin Fuad ilə görüşüb. Görüşdə Azərbaycanda ekologiyanın qorunması, torpaq ehtiyatlarından səmərəli istifadə, eləcə də səhralaşma və quraqlıqla mübarizə üzrə həyata keçirilən tədbirlər barədə məlumat verilib. Eyni zamanda, IDEA İctimai Birliyi tərəfindən ölkəmizdə və regionda ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması və ekoloji dayanıqlığın təşviqi istiqamətində icra olunan layihə və təşəbbüslər müzakirə olunub. Həyata keçirilən ağacəkmə aksiyalarının, yaşıllıq sahələrinin artırılmasının, mövcud meşə və ağac resurslarının qorunmasının iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması, torpaq deqradasiyasının qarşısının alınması və ekoloji tarazlığın qorunması baxımından əhəmiyyəti xüsusi vurğulanıb. Daha sonra Xəzər dənizinin səviyyəsinin enməsinin ekoloji və sosial-iqtisadi təzahürləri ilə bağlı fikir mübadiləsi aparılıb. Bu xüsusda Xəzər dənizində baş verən dəyişikliklərin sahilyanı ekosistemlərə, biomüxtəlifliyə və regionun ekoloji təhlükəsizliyinə mümkün təsirlərinə toxunulub. Məsələnin daha dərindən araşdırılması, həmçinin mümkün birgə həll yollarının müəyyənləşdirilməsi istiqamətində əməkdaşlıq imkanları müzakirə olunub.



Görüşdə, həmçinin quraqlıq və səhralaşma kimi proseslərin vaxtında qarşısının alınmasının əhəmiyyəti, eləcə də IDEA İctimai Birliyi ilə UNCCD-nin ətraf mühitin mühafizəsi, quraqlığın və torpaq deqradasiyasının qarşısının alınması və ekoloji maarifləndirmə sahələrində mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

Leyla Əliyeva BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil ilə də görüş keçirib. görüşdə Azərbaycanın ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunması və ekoloji dayanıqlığın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verilib. Bu xüsusda, həmçinin IDEA İctimai Birliyinin sözügedən sahələr üzrə layihə və təşəbbüsləri, o cümlədən biomüxtəlifliyin zənginləşdirilməsi, ətraf mühitlə bağlı maarifləndirmə tədbirləri, eləcə də nadir fauna növlərinin qorunması və ekosistemlərin bərpasına yönələn fəaliyyətləri diqqətə çatdırılıb. Eyni zamanda, mühafizə olunan təbiət ərazilərinin sahəsinin genişləndirilməsinin əhəmiyyəti və iqlim dəyişikliklərinin təsirlərinin azaldılmasında rolu qeyd olunub.

Söhbət zamanı Xəzər dənizinin səviyyəsinin enməsinin səbəblərinin, bu prosesin ekoloji və sosial-iqtisadi təsirlərinin birgə öyrənilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Bu xüsusda problemin qlobal iqlim gündəliyində daha geniş yer almasının vacibliyi vurğulanıb.



Bundan əlavə, gənclərin ekoloji məsuliyyətinin artırılması, eləcə də ətraf mühit və iqlim dəyişiklikləri ilə bağlı biliklərinin genişləndirilməsi məqsədilə UNFCCC ilə birgə ortaq təşəbbüslərin həyata keçirilməsi imkanları müzakirə olunub.

# Siyasi dialoqun davamlığı təmin olunur

## Prezident Administrasiyasında Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə ilə görüş keçirilib



Prezident Administrasiyasında Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə ilə görüş keçirilib. Görüş haqqında məlumat Partiyanın Mətbuat xidməti tərəfindən yayılıb.

Görüş zamanı ötən müddət ərzində sağlam iqtidar-müxalifət dialoq çərçivəsində görülmüş işlər, ölkənin artan beynəlxalq statusu, Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan qlobal layihələr, habelə dünya və regionda müşahidə olunan tendensiyalar ətrafında fikir mübadiləsi aparılıb. Bildirilib ki, müxalif siyasi partiyaların Milli Məclisdə təmsil olunması faktı demokratik ənənələrin inkişafı ilə yanaşı, qanunların hazırlanması prosesinə də müsbət təsir edir. Mövcud məsələdə müxtəlif yanaşmaların təbliqi normayaratma fəaliyyətinə müsbət təsir edir. Siyasi partiyaların beynəlxalq əlaqələri isə Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasına xidmət edir. Bu mənada təqdirə layiq haldır ki, ölkənin bütün siyasi partiyaları ölkəmizə qarşı tətbiq olunan “ikili standartlar” və informasiya manipulyasiyaları sərt şəkildə tənqid edir və bu cür hallar ilə mübarizədə öz töhfələrini verir.

Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə ölkədə yeni siyasi konfiqurasiyanın formalaşması prosesinin ilk günündən etibarən, həmçinin 44 günlük Vətən müharibəsi zamanı və bilavasitə tarixi Qələbədən sonra ölkəmizdə yaşanan həmrəylik mühitinin, habelə siyasi sabitliyin qorunmasının strateji əhəmiyyəti vurğulanıb. Görüş zamanı aparılan fikir mübadiləsi çərçivəsində son illər ərzində təşviq olunan siyasi dialoq mühiti sayəsində siyasi partiyaların artan ictimai nüfuzu da xüsusi olaraq qeyd edilib. Dövlətçilik ənənələrinin və milli maraqların qorunması naminə həyata keçirilən bütün təşəbbüslərə öz sadiqliyini bildirən partiya sədri mövcud istiqamətdə atılan hər bir təşəbbüsü bundan sonra da dəstəkləyəcəyini bildirib. Prezident Administrasiyasının rəsmisi görüşün sonunda milli maraqlara cavab verən fəaliyyətdə Demokratik İslahatlar Partiyasına müvəffəqiyyətlər arzulayıb.

# 3 gün sonra müharibə başa çatır?

## ABŞ ilə İran iyunun 19-da saziş imzalayacaq

Yaxın Şərqdə müharibə bu həftə başa çata bilər. Bunu ABŞ-ın vitse-prezidenti C.D.Vens bildirib. Qeyd olunub ki, artıq İran ilə ABŞ arasında ilkin razılaşma kimi elektron memorandum imzalanıb. Hər iki tərəf müqaviləni elektron şəkildə imzalayıb və imzalanma mərasimi iyunun 19-da keçiriləcək. Vitse-prezident vurğulayıb ki, İran nüvə silahı proqramlarından imtina etmək və Yaxın Şərqdə terror fəaliyyətlərinin maliyyələşdirilməsini dayandırmaq kimi zəruri uzunmüddətli öhdəliklər götürsə, ABŞ sanksiyalardan əhəmiyyətli dərəcədə azadolmanı təmin etməyə hazırdır. ABŞ vitse-prezidenti Amerika liderinin özünün nümayəndə heyətlərinin görüşündə iştirak edə biləcəyini də istisna etməyib.

Məsələ ilə bağlı açıqlama verən vasitəçi Pakistan İslam Respublikasının Baş naziri Şəhbaz Şərif qeyd edib ki, hər iki tərəf Livan da daxil olmaqla bütün cəbhələrdə hərbi əməliyyatların dərhal və daimi dayandırıldığını bəyan edir. Vurğulanıb ki, sülh sazişinin Livana da aid edilməsi İran üçün əhəmiyyətli bir bənd olaraq qalır.

İran xarici işlər nazirinin müavini Kazem Qəribabadi də ABŞ ilə sazişlərin imzalandığını təsdiqləyib. O, tərəflərin “anlaşma memorandumu” imzalayacağını söyləyib. Qəribabadi bildirib ki, daha sonra yekun sülh razılaşmasına nail olmaq üçün danışıqlar 60 gün davam edəcək və bu müddət ərzində İran memorandumun müddəalarının icrasını izləyəcək.

ABŞ Prezidenti Donald Tramp isə öz növbəsində belə bir razılaşmanın imzalanmasını “əvvəllər heç kimin əldə etmədiyi bir şey” adlandırıb. ABŞ prezidenti sosial media platforması “TruthSocial”da yazıb: “İlk dəfə olaraq regiondakı liderlər həqiqi sülhə nail olmağa kömək edə biləcək bir prezident tapdılar”.

**Memorandumun şərtləri...**

Qeyd edək ki, 14 maddəlik memorandumun yeni detalları məlum olub. Bu barədə İranın “Mehr” xəbər agentliyi məlumat yayıb. Bildirilib ki, memorandumа Livan da daxil olmaqla, bütün cəbhələrdə hərbi əməliyyatların daimi və dərhal dayandırılması, ABŞ-ın İranın daxili işlərinə qarışmamaq və İran İslam Respublikasının suverenliyinə hörmət etmək öhdəliyi, dəniz blokadasının 30 gün ərzində tamamilə ləğvi, ABŞ-ın İran ətrafından qüvvələrini çıxarmaq öhdəliyi, razılaşma ilə 30 gün ərzində Hörmüz boğazının yenidən açılması, neft, neft-kimya məhsulları və törəmələrinin satışına sanksiyaların dayandırılması və İranın maliyyə resurslarına tam çıxışı, ABŞ və müttəfiqlərinin İran üçün ən azı 300 milyard dollar dəyərində yenidənqurma planları təqdim etməsinin zəruriliyi, nüvə məsələləri, ABŞ-ın ilkin və ikinci dərəcəli sanksiyalarının, həmçinin BMT Təhlükəsizlik Şurası və Beynəlxalq Atom Enerjisi Agentliyinin İdarə Heyətinin qətnamələrinin tam ləğvinə əsaslanan yekun razılaşmaya nail olmaq üçün 60 günlük danışıqların başlanması, İranın Nüvə Silahlarının Yayılmaması Müqaviləsi (NPT) çərçivəsində nüvə silahı istehsal etməmək öhdəliyini bir daha təsdiqləməsi, danışıqlar zamanı ABŞ regionda qüvvələrini artırmamaq öhdəliyi götürüb və yeni sanksiyalar tətbiq etməyəcəyi, yekun danışıqların 60 günlük müddəti ərzində bloklanmış İran aktivlərinin 24 milyard dollarının azad edilməsi, bu məbləğin yarısının danışıqlar başlamazdan əvvəl İrana təqdim edilməsi, razılaşmanın həyata keçirilməsi üçün monitorinq mexanizminin yaradılması, yekun razılaşmanın BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə təsdiqlənməsi və yekun danışıqların İranın dondurulmuş aktivlərinin yarısının azad edilməsindən, İranın neft sanksiyalarının dayandırılmasından və dəniz blokadasının ləğvindən əvvəl başlamayacağı qeyd olunub.

**Hörmüz tam açılacaq...**

ABŞ Prezidenti Donald Tramp da İranla müqavilənin imzalandığını və Hörmüz boğazının artıq qismən gəmiçilik üçün açıq olduğunu və 19 iyunda tam açılacağını bildirib. Tramp bu açıqlamanı G7 sammitinə gedərkən Cenevrədə verib. “Saziş tam imzalanıb. Hörmüz boğazı artıq qismən açıqdır. Onlar artıq tapdıqları bir neçə mədən üçün kiçik bir axtarış aparırlar. Gəmilər artıq yola düşməyə başlayır. Cümə günü tam açılacaq. İranla çox yaxşı yola getdik”, - deyə Tramp bildirib.

Qeyd edək ki, Fars xəbər agentliyi məlumatlı mənbəyə istinadən danışıqlar üçün 60 günlük güzəşt müddəti müəyyənləşdiyini və bu müddət ərzində Tehranın Hörmüz boğazından təhlükəsiz keçidlə bağlı xidmətlərə görə ödəniş tələb etməyəcəyini bildirmişdi. Mənbənin məlumatına görə, İran və ABŞ arasında anlaşma memorandumunun son versiyasında əhəmiyyətli dəyişikliklər edilib. Xüsusilə, İran və Oman Hörmüz boğazında dəniz nəqliyyatının gələcəyini müəyyən etməkdə əsas rol oynayacaq.



Bu arada Prezident Tramp Hörmüz boğazından tankerlərin daşınmasını bərpa etdiyini açıqlayıb. “Gəmilər hərəkət etməyə başlayır, bir çoxu neftlə yüklənir və Hörmüz boğazını tərk edir. Onlar tamamilə təhlükəsiz, təhlükəsiz və toxunulmaz olan cənub “magistral yolu” ilə hərəkət edirlər. Başqa səyahət marşrutları da var!!!” - Tramp özünün “Truth Social” sosial şəbəkəsində yazıb. Amerika liderinin sözlərinə görə, digər marşrutlar da daşınma üçün mövcuddur.

**Sanksiyalar ləğv ediləcəkmi?**

ABŞ Prezidenti Donald Tramp həmçinin İran ilə imzalanacaq sazişin sanksiyaların ləğvini əhatə etmədiyini, lakin hər şeyin Tehranın davranışından asılı olduğunu bildirib. O, bu açıqlamanı G7 sammitində keçirilən brifinqdə verib. “Bu, daha çox davranış məsələsidir. Əgər onlar etməli olduqlarını etsələr, o zaman qüvvəyə minəcək”, - deyə Tramp məsələ ilə bağlı suala cavab verib.

Amerika prezidentinin sözlərinə görə, saziş artıq imzalanıb, lakin tərəflərin tranzitlə bağlı mövqeləri və atəşkəs rejiminin pozulması barədə məlumatlar da daxil olmaqla, həll olunmamış məsələlər qalır.

Tramp vurğulayıb ki, sazişin əsas məqsədi İranın nüvə silahı əldə etməsinin qarşısını almaqdır.

**İsrail narahatdır...**

“The Wall Street Journal” qəzetinin məlumatına görə, İsrail ABŞ-İran sazişindən narahatdır. Onlar Tehranın təzyiqin azaldılmasının və Vaşinqtonla münasibətlərin pozulması riskinin ölkə üçün ciddi nəticələrə səbəb olacağından ehtiyat edirlər. “The Wall Street Journal” (WSJ) qəzeti vəziyyətlə tanış olan mənbəyə istinadən xəbər verir ki, İsrailin Baş naziri Benyamin Netanyahu İranla müharibəyə son qoymaq üçün nəzərdə tutulan razılaşma ilə bağlı fikir ayrılıqlarını həll etmək üçün ABŞ Prezidenti Donald Trampla görüşmək istəyib. Nəşrin məlumatına görə, bu həftə imzalanması gözlənilən razılaşma İsrail liderləri arasında həyəcana səbəb olub. Onlar Tehrana təzyiqin azaldılmasının və Hizbullahla müharibə fonunda Vaşinqtonla fikir ayrılığı riskinin ciddi nəticələrə səbəb ola biləcəyindən qorxurlar. İyunun 15-də keçirilən mətbuat konfransında Netanyahu açıq şəkildə razılaşmanı tənqid etməsə də, əsas məqsədlərə nail olunduğunu bildirib - İran nüvə proqramından imtina edir.

Daha əvvəl “Ynet” nəşri İsrail mənbələrinə istinadən xəbər vermişdi ki, Netanyahu Trampı Vaşinqton və Tehran arasında 15 iyunda bağlanmış razılaşmaya baxmayaraq, İsrailin Livanda hərbi əməliyyatları dayandırmaqdan imtina etməsi barədə məlumatlandırıb.

“The New York Times” qəzetinin məlumatına görə, İsrail hesab edir ki, razılaşma İranla münaqişənin əvvəlində qarşıya qoyulan məqsədlərdən “uzaqdır”. Bundan əlavə, İsrail hazırda “sülh prosesindən kənarda qalır” və danışıqlarda iştirak etmir.

**300 milyon ödənilməyəcək...**

ABŞ Prezidenti Donald Tramp sosial media hesabında Vaşinqtonun müqavilənin bir hissəsi kimi Tehrana 300 milyon dollar ödəyəcəyi ilə bağlı informasiyanı saxta xəbər adlandırıb. “ABŞ-ın İrana 300 milyon dollar ödəməsi ilə bağlı xəbər saxta xəbərdir”, - Tramp yazıb. Amerika lideri dəqiq məbləği açıqlamayıb. Daha əvvəl Mehr xəbər agentliyi ABŞ ilə müqavilənin müddəalarından birinin ABŞ və müttəfiqləri tərəfindən ən azı 300 milyard dollar dəyərində İranın yenidən qurulması üçün ödənilmə planı olduğunu bildirmişdi. ABŞ müqaviləsinin bu müddəası rəsmi olaraq təsdiqləməyib, lakin ideyanın özü Konqresdə müqavimətlə qarşılaşıb.

Xatırladaq ki, ABŞ ilə İran arasında ilkin razılaşmanın əldə olunmasının ardından isə neftin qiyməti üç ayda ilk dəfə barel üçün 82 dollardan aşağı düşüb. Bu, təxminən 7 faiz deməkdir.

**Beynəlxalq aləm müsbət qarşılayır...**

ABŞ ilə İran arasında razılaşmanın əldə edilməsi beynəlxalq aləmdə də müsbət qarşılanıb. Belə ki, artıq Tehrana münasibətdə beynəlxalq mövqedə mühüm dəyişiklik baş verir. İtaliya, Fransa, Almaniya və Böyük Britaniya Tehranla Vaşinqton arasında razılaşma əldə olunmasından sonra İrana qarşı sanksiyaların ləğvinə hazır olduqlarını bildirən birgə bəyanat yayıblar. Bəyanatda qeyd olunub ki, tərəflər İranın nüvə silahına malik olmamasını təmin etmək məqsədilə ABŞ, İran və Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) ilə əməkdaşlığa hazırdırlar.

Sənəddə vurğulanıb ki, İran bu istiqamətdə aydın və etibarlı addımlar atacağı təqdirdə, ona qarşı tətbiq olunan sanksiyaların ləğvi mümkün olacaq.

Eləcə də Yaponiya, Kanada, Avstraliya, Belçika, Bolqarıstan, Kipr, Dominikan Respublikası, Estoniya, Finlandiya, Yunanıstan, Latviya, Polşa və Portuqaliya da sanksiyaların ləğvinə hazır olduqlarını bəyan ediblər.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**







## 17 iyun Ümumdünya Quraqlıq və Səhralaşma ilə Mübarizə Günüdür

Qlobal iqlim dəyişiklikləri fonunda su ehtiyatlarının azalması bütün dünyanın ciddi problemlərindən birinə çevrilib. Bu təhlükə milyonlarla insanın yaşayış şəraitinə, kənd təsərrüfatına, biomüxtəlifliyə və iqtisadi inkişafına birbaşa təsir göstərir.

Bu gün dünyanın müxtəlif ölkələri uzunmüddətli quraqlıq səbəbindən su qıtlığı, məhsuldarlığın azalması və torpaqların yararsız hala düşməsi kimi təhlükələrlə üz-üzə qalıb. Alimlər xəbərdarlıq edirlər ki, əgər təbii su resurslarının qorunması istiqamətində daha qətiyyətli addımlar atılmasa, yaxın gələcəkdə səhralaşma prosesi daha geniş əraziləri əhatə edə bilər. Bu da qlobal miqyasda yeni sosial, iqtisadi və humanitar problemlərin yaranmasına səbəbdir.

Yeri gəlmişkən, iyunun 17-si Ümumdünya Quraqlıq və Səhralaşma ilə Mübarizə Günüdür. Əlamətdar gün 1994-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən elan olunub. Elə həmin il Birləşmiş Millətlər Təşkilatı tərəfindən səhralaşma ilə mübarizə haqqında Konvensiya qəbul edilib. Dünyanın 170 ölkəsinin qoşulduğu Konvensiyada dövlətlərə səhralaşma ilə mübarizədə beynəlxalq səviyyədə əməkdaşlığın zəruriliyi, o cümlədən bu barədə maarifləndirmənin artırılması təklif olunur.

Son illər Azərbaycanda su ehtiyatlarının səmərəli idarə olunması, yaşıllaşdırma layihələrinin həyata keçirilməsi, meşə fondunun genişləndirilməsi, yeni su anbarlarının yaradılması, meliorasiya sistemlərinin təkmilləşdirilməsi və müasir suvarma texnologiyalarının tətbiqi istiqamətində mühüm addımlar atılır. Bütün bunlar həm quraqlıq risklərinin azaldılmasına, həm də ekoloji təhlükəsizliyin gücləndirilməsinə xidmət edir. Xüsusilə, kənd təsərrüfatı sahəsində damcı suvarma sistemlərinin genişləndirilməsi, torpaq resurslarından rasional istifadə və ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər göstərir ki, Azərbaycan bu problemi təkcə bugünün deyil, həm də gələcək onilliklərin strateji məsələsi kimi qiymətləndirir.

Ölkəmiz qlobal iqlim gündəliyinin fəal iştirakçılarından biri kimi beynəlxalq əməkdaşlığa da böyük önəm verir. Bakının ev sahibliyi etdiyi beynəlxalq iqlim platformaları Azərbaycanın bu sahədə artan rolunu bir daha nümayiş etdirib. Xüsusilə COP29 çərçivəsində Azərbaycan iqlim dəyişiklikləri, su təhlükəsizliyi, dayanıqlı inkişaf və ekoloji dayanıqlığın gücləndirilməsi istiqamətində dünya ölkələri arasında dialoqun genişləndirilməsinə xüsusi diqqət ayırıb.

Bundan başqa, bu il 17-22 may tarixlərində Bakıda keçirilən Dünya Şəhərsalma Forumu - WUF13 (World Urban Forum) Azərbaycanın beynəlxalq nüfuzunu daha da artıran və ölkəmizin dayanıqlı şəhər inkişafına verdiyi önəmi nümayiş etdirən mühüm tədbirlərdən biri oldu. Azərbaycanın belə nüfuzlu tədbirə ev sahibliyi etməsi təsadüfi deyil. Çünki son illərdə ölkəmiz müasir şəhərsalma, "yaşıl enerji", ekoloji davamlılıq, "ağıllı şəhər" konsepsiyası və şəhərlərin gələcək inkişaf strategiyalarının formalaşdırılması istiqamətində mühüm addımlar atıb və əldə olunan təcrübəni beynəlxalq ictimaiyyətlə bölüşüb.

Əslində, quraqlıq yalnız təbiətin problemi deyil, hər bir insanın gündəlik həyatına toxunan və hər kəsin məsuliyyətini artıran bir məsələdir. Çünki israf olunan hər damla su, məhv edilən hər ağac və çirkləndirilən hər qarış torpaq gələcək nəsillərin yaşam imkanlarının azalması deməkdir. Dünya Quraqlıq və Səhralaşma ilə Mübarizə Günü bizə bir daha xatırladır ki, Yer kürəsini qorumaq üçün böyük dəyişikliklər kiçik addımlardan başlayır. Bu gün atılan hər bir məsuliyyətli addım sabah daha yaşıl, daha sağlam və daha təhlükəsiz bir dünyanın formalaşmasına xidmət edir. Çünki təbiəti qorumaq, əslində, insanlığın öz gələcəyini qorumaq deməkdir.

*Yeganə BAYRAMOVA*

# Tətil, yoxsa təhsil...

## Uşaqların yay planı necə qurulmalıdır?

Məktəblərdə dərs ilinin yekunlaşması ilə başlanan yay tətili daha çox istirahət assosasiyası yaradır. Xüsusilə uşaqlar və məktəblilər yay tətili zamanı vaxtlarını daha çox istirahətə həsr edirlər. Bu dövrdə onlar müəyyən mənada illik dərs yükündən uzaqlaşır, daha çox istirahət edir, dostları ilə vaxt keçirir və müxtəlif əyləncəli fəaliyyətlərlə məşğul olurlar. Mütəxəssislər də vurğulayırlar ki, yay tətili uşaqların həm fiziki, həm də psixoloji baxımdan dincəlməsi üçün çox vacib hesab olunur. Bu dövrdə valideynlər arasında tez-tez müzakirə olunan bir sual da gündəmə gəlir: Uşaqlar yay tətilində çox dərs oxumalı, yoxsa dincəlməlidirlər?

Bəzi valideynlər düşünür ki, yay aylarında dərsdən uzaq qalmaq uşağın biliklərini zəiflədir, digərləri isə hesab edir ki, uşağın həm fiziki, həm də psixoloji baxımdan qarşıdan gələn dərs ilinə tam hazır olması üçün istirahətə ehtiyacı var. Mütəxəssislərin fikrincə, bu məsələdə əsas məqam balansı qorumaqdır.

**Yeni bacarıqlar, yeni maraqlar**

Təhsil üzrə ekspert Elçin Əfəndi "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, uşaqların yay tətili ərzində tamamilə dərsdən uzaq qalması müəyyən bilik və bacarıqların zəifləməsinə səbəb ola bilər. Buna görə də yay aylarında uşaqların gündəlik həyatına maraqlı və faydalı fəaliyyətlərin daxil edilməsi böyük əhəmiyyət daşıyır: "Məsələn, uşaqlar yaşlarına uyğun kitablar oxumaqla həm söz ehtiyatlarını zənginləşdirə, həm də təxəyyül və məntiqi düşünmə qabiliyyətlərini inkişaf etdirə bilərlər. Oxunan kitabların valideynlər və ya dostlarla müzakirə edilməsi isə onların fikri ifadəetmə bacarığını daha da gücləndirir.

Bununla yanaşı, yay tətili uşaqların yeni hobbilər kəşf etməsi üçün ideal fürsətdir. Rəsm çəkmək, musiqi alətində ifa etməyi öyrənmək, fotoqrafiya ilə məşğul olmaq, şahmat oynamaq və ya müxtəlif əl işləri hazırlamaq kimi fəaliyyətlər uşaqlarda yaradıcılığı artırır, səbr formalaşdırır və özünəinam hissinin inkişafına müsbət təsir göstərir. Xüsusilə, texnologiyanın sürətlə inkişaf etdiyi müasir dövrdə proqramlaşdırma, robototexnika və rəqəmsal dizayn kimi sahələrlə erkən yaşlardan tanış olmaq uşaqların gələcək peşə seçimlərinə də müsbət təsir göstərə bilər".

**Valideynlərlə birgə...**

Ekspert qeyd edib ki, yay tətilinin səmərəli keçirilməsi üçün ailələrin də rolu böyükdür: "Valideynlər uşaqları ilə birlikdə muzeylərə, tarixi məkanlara, sərgilərə və təbiət guşələrinə səfərlər təşkil edə bilərlər. Belə fəaliyyətlər uşaqların öyrənmə prosesini daha maraqlı edir, onların dünyagörüşünü genişləndirir və yeni bilikləri real həyat müşahidələri ilə əlaqələndirməsinə imkan yaradır. Təcrübə göstərir ki, uşaqlar əyani şəkildə gördükləri və yaşadıqları məlumatları daha uzun müddət yadda saxlayırlar".



**Zehni yüklənmə uşaqlara necə təsir edir?**

Psixoloq Elnur Rüstəmovun sözlərinə görə isə, il ərzində məktəbə gedən, ev tapşırıqları yerinə yetirən, imtahan və qiymətləndirmə stressi yaşayan uşaqların yay tətilində zehni yüklənmədən uzaqlaşmağa ehtiyacı olur: "İnsan beyni fasiləsiz işləyən mexanizm deyil. Necə ki, əzələlər uzun müddət işlədikdən sonra dincəlməyə ehtiyac duyur, eyni qayda ilə uşaq beyni də yeni tədris ilinə hazırlaşmaq üçün müəyyən müddət rahatlıq yaşamalıdır. Əgər yay tətili ərzində uşaq hər gün saatlarla dərs oxumağa məcbur edilirsə, bu, onda zehni yorğunluq, bezmə, motivasiya itkisi və hətta təhsilə qarşı mənfi münasibət formalaşdıra bilər".

**Əylənərək inkişaf etmək mümkündür**

E.Rüstəmov bildirib ki, uşaqlıq dövründə oyun oynamaq, sərbəst vaxt keçirmək, dostlarla ünsiyyət qurmaq və yeni təcrübələr qazanmaq da ən az dərs oxumaq qədər vacibdir: "Çünki uşağın emosional inkişafı təkcə kitablar vasitəsilə deyil, həyat təcrübələri, sosial münasibətlər və ətraf aləmi kəşf etməsi ilə də formalaşır. Yay tətilində parkda gəzmək, ailə ilə səyahət etmək, maraqlı kitablar oxumaq və ya üzgüçülük, idmanla, o cümlədən yaradıcı fəaliyyətlərlə məşğul olmaq uşağın şəxsiyyətinin inkişafına ciddi töhfə verir".

**Təhsildən tam uzaqlaşmaq da olmaz**

Psixoloqun fikrincə, bununla belə, yay tətilində təhsildən tamamilə uzaqlaşmaq da tövsiyə edilmir: "Uzun müddət heç bir zehni fəaliyyətlə məşğul olmayan uşaqlarda bəzi bilik və bacarıqların zəifləməsi müşahidə oluna bilər. Lakin burada söhbət saatlarla davam edən ağır dərs yükündən deyil, daha çox uşağın maraqlarına uyğun, əyləncəli və inkişafetdirici fəaliyyətlərdən gedir. Məsələn, hər gün qısa müddət kitab oxumaq, məntiqi oyunlar oynamaq, xarici dil öyrənmək və ya maraq göstərdiyi sahələr üzrə məlumat toplamaq həm biliyin qorunmasına, həm də zehni inkişafın davam etməsinə kömək edir.

Araşdırmalar göstərir ki, daim yüksək nəticə tələb olunan, davamlı təzyiq altında saxlanılan uşaqlarda narahatlıq, özünəinamın azalması və emosional gərginlik riski daha yüksək olur. Əksinə, istirahət və öyrənmənin düzgün balanslaşdırıldığı mühitdə böyüyən uşaqlar yeni dərs ilinə daha həvəsli, enerjili və motivasiyalı başlayırlar. Onlar öyrənmə prosesini məcburiyyət kimi deyil, maraqlı fəaliyyət kimi qəbul etməyə başlayırlar".

**Motivasiyalı uşaq gələcək uğurların ən möhkəm təməlidir**

E.Rüstəmovun sözlərinə görə, unutmaq olmaz ki, yay tətili uşağın həyatında sadəcə boş vaxt deyil, həm də inkişaf dövrüdür: "Lakin bu inkişaf yalnız dərs masası arxasında baş vermir. Bəzən uşağın təbiətdə keçirdiyi bir gün, dostları ilə oynadığı bir neçə saat və ya ailəsi ilə etdiyi səmimi söhbət onun psixoloji sağlamlığı üçün onlarla əlavə dərsdən daha faydalı ola bilir. Buna görə də mütəxəssislər valideynlərə uşaqların yay tətilini nə tamamilə dərsdən uzaq, nə də yalnız dərs üzərində qurmağı tövsiyə etmirlər. Ən doğru yanaşma uşağın həm istirahət etməsinə, həm də özünü inkişaf etdirməsinə imkan yaradan sağlam balans yaratmaqdır. Çünki xoşbəxt, dincəlmiş və motivasiyalı uşaq gələcək uğurların ən möhkəm təməlidir".

*Yeganə BAYRAMOVA*



## Azərbaycanda ilk dəfə...




Azərbaycanda ilk dəfə çimərlik voleybolu üzrə "Queen & King of the Court Mixed" turniri keçiriləcək. AZƏRTAC xəbər verir ki, iyunun 20-də Bakı Su İdmanı Sarayında təşkil olunacaq yarışda 40 komanda çempionluq uğrunda mübarizə aparacaq. Turnirdə peşəkar və həvəskar voleybolçular iştirak edəcəklər.

Qeyd edək ki, dünyanın müxtəlif ölkələrində keçirilən "Queen & King of the Court" turniri çimərlik voleybolunun ən maraqlı və dinamik yarış formatlarından biri hesab olunur. Bu turnir ölkəmizdə ilk dəfə bu il mayın 23-də təşkil edilib.

Bu dəfə isə yarış fərqli formatda keçiriləcək. Belə ki, hər komandada bir qadın və bir kişi voleybolçu yer alacaq.

## Yeni baş məşqçi...



Fransalı mütəxəssis Erve Renar Tunis millisinin baş məşqçisi təyin olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Tunis Futbol Federasiyası məlumat yayıb. 57 yaşlı mütəxəssis dünya çempionatının sonunadək yığmaya rəhbərlik edəcək. Turnirdən sonra tərəflər əməkdaşlığın davam etdirilməsi ilə bağlı danışıqlar aparacaqlar. Qeyd edək ki, Tunis millisi dünya çempionatının qrup mərhələsinin ilk turunda İsveçə 1:5 hesabı ilə məğlub olduqdan sonra baş məşqçi Sabri Lamuşi vəzifəsindən uzaqlaşdırılıb.

Bu, dünya çempionatları tarixində qrup mərhələsi davam edərkən baş məşqçi istefası ilə bağlı ilk belə hadisə olub.

Erve Renar karyerası ərzində Zambiya, Kot-d'İvuar, Mərakeş və Səudiyyə Ərəbistanı millilərini çalışdırıb.

Tunis yığması dünya çempionatının qrup mərhələsində növbəti oyunlarını iyunun 21-də Yaponiya, iyunun 26-da isə Niderland millisinə qarşı keçirəcək.

## 67 ölkədən biletlər alınıb

Bakıda təşkil olunacaq UFC turnirinə biletlər dünyanın 67 ölkəsindən olan azarkeşlər tərəfindən əldə edilib. Bakı Şəhər Halqasından AZƏRTAC-a bildirilib ki, turnirə ən böyük maraq ABŞ, Böyük Britaniya, Almaniya, Türkiyə, Qazaxıstan və İsraildən müşahidə olunur.

Qeyd edək ki, Azərbaycan hazırda MDB məkanında, Mərkəzi Asiyada və Cənubi Qafqazda UFC turnirlərinə ev sahibliyi edən yeganə ölkədir.

UFC turniri iyunun 27-də Milli Gimnastika Arenasında keçiriləcək. Gecənin əsas qarşılaşmasında Azərbaycan təmsilçisi Rafael Fiziyev meksikalı Manuel Torreslə üz-üzə gələcək. İkinci əsas döyüşdə isə orta çəkidə çıxış edən Şarabutdin "Shara Bullet" Maqomedov braziliyalı Mişel Pereyra ilə qüvvəsini sınayacaq. Turnir çərçivəsində daha bir azərbaycanlı döyüşçü Fərman Həsənov da oktaqona çıxacaq. Onun rəqibi ABŞ təmsilçisi Erik Nolan olacaq.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5355
Sifariş: 789
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova